Şahanə Müşfiq

QUTSAL YOLÇU

Şəhid mayor Emin Süleymanovun xatirəsinə

Şahanə Müşfiq

Qutsal yolçu

(Şəhid mayor Emin Süleymanovun xatirəsinə)

Qəhrəman olmaq üçün xüsusi düstur
yoxdur; bu, Tanrının insana ətasıdır...

Ş. M.

Bakı-2022

NƏFƏS

Birlikdə nəfəs verək!

Bu kitab "Nəfəs" İctimai Birliyinin sədri Firəngiz Balakişiyeva tərəfindən nəşr olunmuşdur.

Təşkilati dəstək: *Dünya Gənc Türk Yazarlar Birliyi*

Redaktor və korrektor:
Şəfa Vəli
(*AYB və DGTYB üzvü, Prezident təqaüdçüsü*)

Dizayner:
Fidan Hüseynova

Texniki redaktor:
Nərmin Həsənova

Kitab 44 günlük Vətən müharibəmizin qəhrəmanlarından biri, şəhid mayor Emin Süleymanovun əziz xatirəsinə həsr olunub. Oxucular bu kitabda şəhid mayor Emin Süleymanovun ömür yoluna səyahət edəcəklər. Bir hərbiçi ömrünün şəhadətə qədərki dövrü və şəhadətlə yüksəldiyi ucalıq səbahımız olan uşaqların vətənpərvər ruh-da böyümələrinə vəsilə olacaq.

Azərbaycan Respublikasının Dövlət Himni

Sözləri: Əhməd Cavad
Musiqisi: Üzeyir Hacıbəyov

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!

***

"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Ulu Öndər Heydər Əliyev

***

"Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq... Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq!"

Azərbaycan Respublikasının Prezidenti,
Ali Baş Komandan İlham Əliyev

***

"Azərbaycan xalqı üçün hər bir əsgərimiz dəyərlidir və əzizdir. Dünyanın ən böyük sərvəti olan ömrünü Vətən naminə qurban verən hər bir övladımız Azərbaycanın tarixində qəhrəman kimi yaşayacaq".

Azərbaycan Respublikasının Birinci
vitse-prezidenti Mehriban Əliyeva

MÜƏLLİFDƏN

Azərbaycan tarix boyu çox savaşlar, çox müharibələr görüb. Başı qovğadan ayılmayan torpağın sonuncu və ən ağır yarası idi Qarabağ...

Ən yeni tariximizə qızıl hərflərlə həkk olunan Vətən müharibəmiz məhz bu yaranın məlhəmi oldu. Cənab Ali Baş Komandanın rəhbərliyi, şəhid və qazilərimizin canı, qanı, zabit və əsgərlərimizin fədakar əməyi, xalqımızın birliyi sayəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımız cəmi 44 gün ərzində azad edildi. Böyük bir millətin haqqı olan əzəmətli "QALİB" ifadəsi yenidən adımızın əvvəlinə yazıldı.

44 gün... Möhtəşəm... Məğrur... Əlvanlığında dünyanın, kainatın bütün rənglərindən pay olan, bəşəriyyətin ən ali sevdasını – Vətən sevdasını müasir dünyanın qədim-qayım yaddaşına bir daha yazan 44 gün! Heç vaxt unutmayacağımız, nəinki, gün-gün, an-an yaddaşımızda əbədiləşən o 44 gündə uşaqdan-böyüyə, cavandan-qocaya bütün Azərbaycan xalqı bir yumruğa döndü, milli qürurumuzun oduna-közünə çevrildi. Həmin günləri xatırladıqca mənsub olduğumuz Azərbaycan xalqının hər bir fərdi ilə fəxr edirik. Xüsusən, şəhidlərimiz, qazilərimiz, əsgər və zabitlərimiz ilə...

Öz ömründən Vətənə pay ayıran oğullarımız haqqında nə qədər danışsaq, yazsaq, azdır. Canını, qanını bu Vətən yolunda, bu xalq uğrunda əsirgəməyən qeyrətli, cəsarətli igidlərimizi hər kəs tanımalıdır. Həmişə belə olub: xalq öz qəhrəmanlarının açdığı cığıra ayaq qoymazdan qabaq onun adını çəkib, ehtiramını və təşəkkürünü bütün səmimiyyətiylə bildirib. Çünki qəhrəmanını tanıyıb. Bu məqamda bir jurnalist, bir yazar kimi mən də öz missiyamın nə olduğunun idrakındayam.

Əməkdaşı olduğum "525-ci qəzet" dövrün öndə gələn mətbu orqanı kimi daim qəhrəman Vətən övladlarının xatirəsini yad edir, vaxtaşırı səhifələrində onlara həsr olunan yazılara, xatirələrə, şeirlərə yer ayırır. Həmin yazıların bir çoxunun müəllifi olaraq, mən də öz könül borcumu ödəməyə (ödəmək mümkün olmasa da!) çalışıram. Bir yazarın təsəllisidir burdakı "çalışmaq" sözü...

***

2020-ci il sentyabrın 27-də 30 ilə yaxın erməni işğalı altında olan Qarabağın və ətrafındakı rayonların azad edilməsi uğrunda Vətən müharibəmiz başladı. Sinəmizə "Araz dağı" çəkiləndən bu yana dilimizin göynəyi olan "o tay", "bu tay" sözləriylə cümlə başlamaq kədərli olsa da, səsimdəki qüruru duyacağınızdan əmin olaraq deyirəm: "Həm o tayda, həm də bu tayda milli ruhumuz alova dönmüş, Qaf -

qazların qartalı olan ölkəmizin başı üstündə qutsal xeyir-duaya çevrilmişdi!" Bəli, Vətən müharibəmiz dünyanın harasında yaşamağından asılı olmayaraq, "azərbaycanlıyam" deyən hər kəsi ayağa qaldırmış, milləti bir yumruğa çevirmişdi.

Müharibəydi... Günlər ötdükcə doğma yurd yerlərimiz rəşadətli ordumuz tərəfindən birbir azad edilir, sevincimiz, qürurumuz ölçüsüzlüyə doğru pərvazlanırdı. Bir zamanlar "işğal siyahısı" adlandırdığımız siyahı indi "azad olunan torpaqların siyahısı"na dönürdü. Amma... Təəssüf ki, artan təkcə azad edilmiş kəndlərin, rayonların sayı deyildi. Ön cəbhədə döyüşərək qəhrəmancasına canını fəda edən şəhidlərimizin siyahısı da yazılırdı günbəgün...

Sosial şəbəkələrdə şəhidlərimizin şəkilləri paylaşılır, qələbəyə birgə sevinən millətim kədəri də pay-püş edirdi. Mənsə susurdum... Sükunətimin iki səbəbi vardı. Birincisi, dövlətimiz tərəfindən rəsmən təsdiqlənməmiş paylaşımlar edib, o günlərdə hər birimizin sosial şəbəkə hesablarını özümüzdən daha çox izlə - yən düşməni sevindirməmək idi. İnsanları dərd altında əyməməyə çalışırdım. Sükunətlə bələ - nən kədərin insanı arındırdığını bilməyim, ruh düşkünlüyünə düşməkdən xilas etdiyin - dən xəbərdar olmağım isə ikinci səbəb idi.

Hər şəhid xəbəri könül dağımız idi; yeri heç zaman sağalmayacaq, göynərtisinə dərman yox, ancaq təsəlli tapdığımız dağ... Təsəllimiz

azad edilən torpaqlar idi. Bu məğrur kədərlə üz tutmuşdum baş redaktorumuz Rəşad Məcidə:

– Müharibə bitəndən sonra şəhidlərlə bağlı həftəlik silsilə yazılarım olacaq, – demişdim.

–Yazarsan. Hamımız yazmalıyıq zəfərimizin qəhrəmanlarından, – Rəşad müəllim bu sözləri elə inamla söyləmişdi ki!

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə sentyabr ayında başlanan və 44 gün davam edən Vətən müharibəmiz 30 ilə yaxın erməni işğalında olan torpaqlarımızın, Qarabağın azadlığıyla nəticələndi. Noyabrın 8-də Şuşa azad olundu! Noyabrın 10-da Vətən müharibəmiz zəfərlə bitdi!

...Və günlər sonra şəhidlərimizin siyahısı açıqlandı... Bütün məsuliyyətimlə qələmi əlimə aldım, "Əbədiyyətdəki əziz ünvanlarımız" adlı silsilə yazıya başladım.

***

Həyat nə qədər şirin olsa da, ölüm heç bir insan övladının qaça bilməyəcəyi tale yazısı - dır. Amma Allah qatında seçilmiş elə insanlar var ki, onlar ölmür; cismən bu dünyanı tərk etsə də, ruhən Yaradana – əbədiyyətə qovuşurlar. "Ölümlərin ən şərəflisi" də deyirlər bu ucalığa – hər kəsə qismət olmayan şəhidlik zirvəsinə.

Bu kitabı Yaradanın verdiyi ömür payını Vətənə həsr edən bir hərbiçimizin, 44 günün

gətirdiyi zəfərimizin müəlliflərindən birinin əziz xatirəsinə həsr edirik. O, sevdası Vətən olan şəhid mayor Emin Süleymanovdur. Haq - qında yazılanları oxuduqca, danışılanları din-lədikcə içimdəki kədərə örpək bildiyim bircə cümləydi: "Vətən sağ olsun!" Qulaqlarımda cingildəyən isə Ali Baş Komandanın səsiydi: "Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, ya-şayacaq!"

Qısa arayış

Emin Süleymanov 21 iyul 1977-ci ildə İmiş-li rayonunda polis ailəsində doğulub. 1983-1992-ci illərdə Namiq Şirinov adına 5 saylı orta məktəbin rus bölməsində, 1992-1995-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi lisey-də orta təhsil alıb. 1995-1999-cu illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (in-diki Heydər Əliyev adına Azərbaycan Hərbi İnstitutu) ali təhsil alaraq artilleriyaçı ixtisa-sına yiyələnib.

Atası polis mayoru Bəhmən Süleymanovun ailəsində 5 qardaş, 2 bacı böyümüşdülər.

E.Süleymanov 1999-cu ildə Azərbaycan Hər-bi İnstitutundan məzun olduqdan sonra Gən - cə şəhərində yerləşən "N" saylı hərbi hissədə leytenant rütbəsində hərbi vəzifəsinə başlayır. Ordu sıralarında xidmət etməyə başlayan gündən Emin yalnız ön cəbhədə olub. 10 ilə yaxın ən çətin xidmət yerlərindən biri hesab olunan Murovda xidmət edib.

2016-cı il "Aprel döyüşləri"nin iştirakçısı olub. Bu döyüşlərdə göstərdiyi şücaətlərə görə Müdafiə Nazirliyi tərəfindən "Fəxri fərman" - la təltif edilib.

Həmçinin, nümunəvi zabit olduğuna görə, E.Süleymanov xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli meda - lı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi"

yubiley medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı və fəxri fərmanlarla təltif edilib.

Azərbaycan Ordusunun mayoru olan Emin Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində artilleriyaçı olaraq iştirak edib. 7 noyabr 2020-ci ildə Şuşanın Daşaltı kəndi istiqamətində gedən əməliyyatlarda vuruşub. 9 noyabr 2020-ci ildə Laçın dəhlizi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhadətə ucalıb.

Şəhid zabit noyabrın 13-də ata yurdu Xubyarlı kəndində atasının yanında torpağa tapşırılıb.

Mayor Emin Bəhmən oğlu Süleymanov şəhadətindən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Xatirələrdə yaşayan qəhrəman...

Bir insan haqqında çox sözlər deyilər, çox xatirələr danışılar. Xüsusən, müqəddəs yolun yolçuları olan şəhidlərimiz – əbədi qəhrəmanlarımız haqqında illərdir danışılır, yazılır, deyilir. Hər kəs onların şücaətindən, qorxmazlığından bəhs edir.

Çörəyini yediyi, havasını udduğu Vətən naminə sinəsinə güllə yeməyi də bacaran oğulların hər birinin həyatı bizə maraqlıdır. Çünki onların adi insan olmadıqlarını anlamışıq artıq... Axı daim qeyri-adiliyə yönələn marağımız bu həyatlardakı qutsal işartıların sehrinə də qapılıb...

Bu sehir və şəhidlərimizi tanımağa, tanıtdırmağa duyduğum könül borcu yapışdı əlimdən, apardı məni şəhid mayor Emin Süleymanovun ailəsinə...

Ömrü səngərlərdə, qaynar zonalarda keçən hərbiçiləri onlarla bu məşəqqətli həyatı paylaşan, bəzən məsafələrin o tayında, bəzən də ölümlə çiyin-çiyinə cəbhədə olmaqlarının qorxusunu, həsrətini, həyəcanını yaşayan ailə üzvlərindən yaxşı kim tanıya bilər ki?! Yaxud

ruhunun çağlamasını, qəlbindəki Vətən sevgisinə bürünərək qarlı aşırımları məğrurcasına aşarkən zehnindəki "Cəngi"ni bir tikə çörəyini, bir udum suyunu, bir qarışlıq yerini paylaşdığı cəbhə dostlarından, əsgərlərindən qeyri kim duyar?!

Məhz bu düşüncələrlə şəhid mayor Emin Süleymanovu tərcümeyi-halından deyil, ailəsinin və cəbhə dostlarının xatirələrindən tanımaq üçün yola çıxdıq. Kitabın hazırlanmasında, ərsəyə gəlməsində kitabın təşəbbüskarı, şəhidimizin həyat yoldaşı Məhsəti xanım Süleymanova başda olmaqla, ailəsi, iş yoldaşları və əsgərləri yardımlarını əskik etmədilər. Şəhidimizin həyat və döyüş yolunda səyahətə çıxdığımızda bələdçimiz oldular. Beləcə, Vətən naminə şama dönən bir ömür kitabı şəhadətin nuruyla daha da aydınlandı önümdə.

Həsrəti məğrur ana...

İlk həmsöhbətim belə bir qəhrəmanı vətənimizə, xalqımıza bəxş edən şərəfli ana olmalı idi. Bala dərdiylə sinəsi dağlansa da, başı dik dayanan, hər adı çəkiləndə gözləri dolsa da, oğlu haqqında danışmaqdan doymayan Tamara anayla görüşümüz həzin bir yaz səhərinə təsadüf etdi. Qızının evində məskunlaşan ana onun görüşünə niyə gəldiyimizi biləndə sevindi. Balasından yazan, onu soraqlayan, onu unutmayan və unutdurmamaq üçün çalışan insanları görmək indi onun və bütün şəhid analarının tək təsəllisidir. Tamara ana da bu təsəllinin ətəyindən yapışdı, başladı Emininin camalını oxşayırmış, saçını tumarlayırmş kimi sözlərinə sığal çəkməyə...

***

Anası Tamara Süleymanovanın dedikləri: "Emin haqqında çox danışa bilərəm, qızım. Balamın nə qədər hörmət qazandığını, təəssüf ki, indi-indi hiss edirəm. Xidmət yoldaşları,

əsgərləri qapımızı kimsəsiz qoymurlar. Onun məzarı üstündən gül-çiçək əskik olmur. Millət tərəfindən diqqət, sevgi görmək başqa bir duyğudur. Eminin gedişi mənim dünyamı qaraltdı.

Ana üçün balanın fərqi olmaz, amma Emin tamam başqa bir uşaq idi. Ailənin beşinci övladı idi. Ta körpəliyindən səhv hərəkəti olmazdı. Hətta biz harasa gedəndə atası evi, həyət-bacanı, uşaqları ona tapşırırdı. Atası sistem işçisi idi. Birinci Qarabağ müharibəsində o da çox zülm çəkib. Çox az sayda heyətiylə düz üç ay Mincivanı müdafiə etmişdi. Onları ordan çıxarandan sonra Mincivan işğal olunmuşdu.

Eminin silaha, hərbə marağı atasının sayəsində yaranmışdı. Atası hara getsə, mütləq ona oyuncaq silah alıb gətirərdi. Uşaqlığından fikri Daxili Qoşunlarda xidmət etmək idi. Uşaq olsa da, özündən böyük düşüncələri, söhbətləri vardı. Hətta böyüklər onun fikriylə hesablaşırdı. Çox qeyrətli oğul idi.

Cəmşid Naxçıvanski adına hərbi liseyi uğurla bitirdi. Müəllimlərinin hamısı ondan razılıq edirdi. Sonradan Ali Hərbi Məktəbə də asanlıqla daxil oldu. Riyaziyyatı çox gözəl bilirdi. Sənətinə həvəsi böyük idi.

"Aprel döyüşləri"ndə şəhidimiz İlqar Mirzəyev onun komandiri olub. Araları da çox yaxşı idi. Onun şəhadətindən sonra Emin uzun müddət özünə gələ bilmədi. Hətta biz ona özünü qorumağı tapşıranda: "İlqar Mirzəyev -

dən artıq deyiləm ki?!" – deyirdi. "Aprel döyüşləri"ndən sonra tabeliyində olan əsgərlərin valideynləri mənlə əlaqə saxlayıb təşəkkür edirdilər. Sən demə, Emin onları elə qoruyub ki, şəxsi heyətindən bir nəfərə də nəsə olmayıb; hamısı sağ-salamat qayıtmışdı.

Tabeliyində olan əsgərlərin valideynləri belə onun haqqında danışmaqdan doymurlar. Bir dəfə bir əsgər atası gəldi, oğlumla – Eminin qardaşıyla söhbətdə dedi ki: "Sənin qardaşın mənim oğluma qələm tutmağı, yazı yazmağı öyrədib". Bu qədər qayğıkeş, diqqətcil, yardımsevər komandir idi. Düzü, mən həyatı üçün təhlükələrə görə onun bu işdə davam etməsini istəmirdim. Dəfələrlə deyirdim ki: "Daha bəsdir, çıx bu işdən". Amma özü bir yana, işdən də onu buraxmaq istəmirdilər. O qədər məsuliyyətli, düzgün xidmət edən bir zabit idi ki, ondan əl çəkmirdilər.

Atası həmişə onunla fəxr edirdi. Xəstə yatağında Eminə zəng etməyə imkan vermirdi: "Uşağı işindən ayırma!"– deyirdi. Ancaq mən dözmədim, zəng elədim. Atası soruşdu ki:

– Eminə zəng elədin?

Dedim:

– Hə.

– Saat neçədə yığmışdın?

– Saat 9-da.

– Əgər Emin mənim xəstəliyimi hiss edibsə, saat 2-də burada olacaq.

And olsun Allaha, düz saat 2-də Emin gəlib çıxdı. Gəldi, atasının əlinin üstündən öpdü, onunla da atası canını tapşırdı.

Vətən müharibəsində Emin hər gün mənə zəng edirdi, məni nigaran qoymurdu. Bircə gün zəng etmədi... Bildim ki, artıq Emin yox - dur *(ağlayır)*.

Ömür boyu Eminin adını çəkəndə mənim çənəm əsməmişdi. Həmin gün "Emin" deyən kimi çənəm əsməyə başladı. Heç danışa da bilmirdim. Özüm də mat qaldım ki, mənə nə oldu?

Xalqımızın hər bir üzvü kimi, ermənilər bizim ailəyə də çox dağlar çəkiblər. Anamın babası Şirin bəy də ermənilərin güdazına gedib. Anam Noraşen (Naxçıvan) qızı olub. Şirin bəy regionun tanınmış, hörmətli bəylərindən olub. Ermənilər əvvəldən onlara zülm ediblər. Son - ra da Şirin bəyi satıblar və babam 1937-ci ildə güllələnib. Hamı Emini Şirin babasına oxşadırdı. Elə babasının taleyini yaşadı balam. İn - di deyirlər ki, ermənilərlə birlikdə yaşayacağıq. Necə yaşayacağam mən ermənilərlə birgə? Axı həmişə onlardan düşmənlik görmüşük.

Eminin şəhadətindən sonra mənə Məşhəd ziyarətinə getmək qismət oldu. Şəhid ailələri, şəhid anaları üçün təşkil olunmuş ziyarət idi. Şəhid analarının hamısı övladlarının şəklini sinəsinə vurmuşdu. Mənsə, elə boynuma Emin üçün hazırlanmış boyunbağını taxmışdım. O

da paltarımın altında qalmışdı. Bilinirdi ki, sinəsində şəkil olanlar şəhid ailəsidir. Məndə yox idi deyə, elə bildilər, mən kənardan gəlmişəm. Soruşdular:

– Sən kimsən?

Dedim:

– Mən də şəhid anasıyam.

Bizi orada izləyən bələdçi qızımız dedi ki:

– Üç gündür, yuxuda bir oğlan mənə deyir: "Anam gələcək".

Eminin şəklini göstərdim. Qız dedi:

– Hə, xala, vallah, bu oğlandır.

O qədər ağladım ki, bala..."

Susur Tamara ana. Qəhər danışmağa imkan vermir. Mən də susuram... Yol boyu ona ünvanlayacağım o qədər sualım vardı ki. Amma heç birini dilə gətirəmmədim. Daha doğrusu, onun sözünü hardasa kəsməyə, nəsə deməyə ürəyim gəlmədi. Bu dərdli ananın tək təsəllisinin balasından danışmaq olduğunu yaxşı bilirdim. İkimiz də kitabı, oraya yazılacaq müsahibəni unutmuşduq. Buraya ard-arda düzdüyüm sətirlərdəki pərakəndəlik də sinəsi övlad dağlı ananın pərakəndə nitqindən yazıya köçürülənlərdir. Baxışlarım əlindəki həmin boyunbağıda ilişib qalır. Barmaqlarıyla Eminin şəklini tumarlayır. Hıçqırıqlarını udub yenidən sözə başlayır:

"Həmişə başımı sığallamağı sevərdi Emin. Deyərdi:

– Ana, saçlarını sığallayanda, elə bilirəm "Quran"a əl basıram. Çox həssas, mədəni, qayğıkeş oğul idi. Mənə, ailəsinə, bacı-qardaşına, hətta əsgərlərinə belə ata qayğısı ilə yanaşırdı.

Məni narahat etməmək üçün, az qala, nəfəs də almazdı.

Bizi Məşhəd ziyarətinə aparan təşkilatçı mənə dedi ki: "Ana, sənin bu ziyarətə gəlməyin möcüzə oldu". Nəsə problem yaranıbmış mənim gedişimlə bağlı, ən son anda düzəlib. Mən də dedim ki: "Allah məni sevsəydi, balamı sağ saxlayardı". O, əllərimdən tutdu, dedi: "Allah hər adama şəhidlik qismət eləmir!"

Könül dostu, dərd həmdəmi...

"Həsrət çəkməyi uzaq yola gedəni olandan öyrənin. Onların həsrəti bir ayrı olur; ağlamırlar, şikayət etmirlər, gözlərini yola dikmirlər. Çünki ölçüsüz həsrətləriylə birgə daxili bir əminlikləri olur: "Gedənim gələcək!" Bax, əsl həsrətlər budur. Sonrası itikdi..."

Harda oxumuşdum bu sözləri? Haçan düşünmüşdüm? Bəlkə bir hekayəmdəndi? Yaxud... Tələsik qeyd dəftərçəmi vərəqləyirəm. Hekayəmdən deyil... Amma yazılacaq hansısa hekayəmin bir abzası olacaq. Və mən bu düşüncə çəmbərinin içinə qoymuşam şəhid mayorun ömür-gün yoldaşını... Bu günsə o, evinin dayağı, ömrünün söykənəcəyi olan Emin Süleymanovla əbədiyyətdəki vüsalının həsrətindədir.

...Ona veriləsi suallarım da boynunu bükür yaddaşımın bir küncündə. Məğrur həsrətin qarşısındakı sayğı duruşum elə susmağımdı...

***

Həyat yoldaşı Məhsəti xanımın xatirələri: "Eminin həyatı da, xidməti də çoxşaxəlidir. O, müxtəlif vaxtlarda Gəncədəki, Murovdağ silsiləsindəki, Yevlax rayonu Aran qəsəbəsindəki, Balakəndəki, Qazax rayonundakı "N" saylı hərbi hissələrdə zabit olub, müxtəlif vəzifələrdə xidmət edib. Və bütün bu regionlarda biz də yanında olmuşuq.

Atasının polis olması Emində uşaqlığından hərb sahəsinə maraq yaradıb. Hərb sənətinə o qədər vurğun imiş ki, atasından onun üçün hərbi papaq və geyim tikdirməyini istəyirmiş.

2005-ci ildə ailə həyatı qurmuşuq. Bir hər - biçinin həyat yollarında ona yoldaş olmaq məni heç vaxt qorxutmayıb. Əksinə, onunla duyduğum qürur hissi mənə həmişə ruh yük - səkliyi, bütün çətinliklərin öhdəsindən gəlmək üçün güc verib. Bir-birimizə qarşı həmişə sayğılı olmuşuq. Ailə mənimçün sevgi məbədidir. Onun qutsallığı qorunmalıdır. Emin də ailəyə bağlı idi. Gələcəklə bağlı bütün xəyal - larımın, arzularımın qəhrəmanı Emin və uşaq - lar idi. Evliliyimizin lap əvvəlindən onunla birgə yollara düşmüşəm. Emini rayon-rayon, şəhər-şəhər gəzdirən Vətən sevgisi olub, mən - sə həmişə sevgi məbədimizin qutsallığından güc alaraq onun yanında olmuşam.

Ailəcanlı idi Emin. Biz olmadan heç yerə getməzdi. Hərdən deyirdim ki:

– Bir az dincəlsən, yaxşı olar. Harasa get, eynin açılsın.

– Siz olmadan heç yerə getmərəm, – deyirdi.

İki uşaqla köç daşımaq, yollarda olmaq elə də asan deyil, təbii ki. Hər dəfə köçdən sonra Emin deyərdi:

– Mənimlə birgə sən də xidmət edirsən.

Mənimsə heç şikayətim olmayıb köçməkdən. Əksinə, ürəyimin dərinliyində düşünürdüm ki, uşaqlarım Vətəni nə qədər yaxşı tanısalar, o qədər çox sevəcəklər. Hər yeni xidmət yerində Eminin Vətənə olan bağlılığının, sevdasının bir az daha dərinləşdiyini hiss edirdim. Vətənin keşiyində dayanan bir zabitin ailə qayğılarından bir damcı da olsa, azad olması naminə çox çalışırdım. O qədər olub ki, qayğıkeşliklə soruşub:

– Çox yorulursan, hə?

Deyirdim:

– Yox, mən bunları sevə-sevə edirəm. Əsas yorulan sənsən.

Emin həmişə çöldə, vətənin keşiyində idi.

2016-cı ildə Gəncəyə gəldik. İlk dəfə idi ki, dörd il müddətində biz bir yerdə qalıb yaşayırdıq".

Susur... Baxışları yol çəkirmiş kimi naməlumluğa zillənir. Hansısa xatirənin sinəsinə söykəyib başını, bilirəm. Nəsə demək, Məhsəti xanımı söykəndiyi xatirədən ayırmaq istəmirəm. Pəncərədən eşiyə baxıram... Vətənimin bir əlçim göyü görünür və mən bu mavi səmada

qanad çarpan quşun belə öz rahatlığı üçün Vətəni qoruyanlara minnətdar olduğunu bilirəm... Dərin bir nəfəs çəkib sözə başlayır Məhsəti xanım:

"...2016-cı il "Aprel döyüşləri"nin də iştirakçısı olub Emin. Həmin vaxt Tamara ana bizimlə yaşayırdı. Oturmuşduq evdə, birdən Eminə zəng gəldi. Xəttin o biri ucundakı nə dedisə, ayağa sıçradı və qətiyyətli səslə:

– Getməliyəm! – dedi.

Hara getdiyini demədi. Ümumiyyətlə, işiylə bağlı çox danışmağı sevmirdi. Bu, onun xarakterindəki bütövlüyün bir göstəricisi idi. Elə bildim Kəlbəcər tərəfə gedir. Sonra qonşumuzdan öyrəndim ki, Tapqaraqoyunluda – döyüşdədir.

Onun ağzıbütövlüyünü həmişə təqdir etmişəm. Zabit yoldaşlarından, çiyin-çiyinə xidmət etdiyi hərbiçilərdən heç kimi tanımamışıq illər boyu. Hərdən mənə sual verirlər ki: "Hərbiçi Eminlə mülki Eminin arasında fərq vardımı?" Məncə, yox idi. İkisi də qayğıkeş, mərd, qorxmaz, qətiyyətli idi. Əgər israrla fərq axtarmağa çalışsam, bircə nüans çıxır qarşıma. Hərbiçi geyimində daha əzəmətliydi Emin...

İndi mənə çox adam: "Onun şəhidliyiylə fəxr et!" – deyir. Susuram. Deyə bilmirəm ki, mən sağlığında da onunla çox böyük qürur duyurdum axı.

Yalanı sevməyən, doğrunu mütləq sayan adam idi Emin. Verdiyi sözlərə daim əməl

edərdi. Hər şeyə yaxşı tərəfindən yanaşırdı. Başqa sözlə, daim gözəllik görürdü gözləri. Dilinə acı söz gəlməzdi. Amma... Ürəyinin dərinliyində düşmənə olan nifrəti kösövlənirmiş, sən demə. Sanki illərlə özünü şəhidliyə hazırlamışdı.

Onun üçün narahat olduğumu görəndə deyirdi:

– Niyə narahat olursan? Mənim işim budur axı.

Ətrafı geniş idi; tanışları, yaxınları çox idi. Amma mənə deyərdi ki, mənim ən yaxın dostum sənsən!

İkimiz də eyni düşüncədə idik. Bizimçün ən yaxın dost insanın həyat yoldaşı idi. O, mənimçün əvəzolunmaz insan, ideal həyat yoldaşı idi. Nəsə narazılığım olsa da, onun işinin xətrinə keçmişəm. Çünki işindəki məsuliyyəti dərk etmişəm. Axı o, tək özünün yox, əsgərlərinin də canına cavabdeh idi.

"Aprel döyüşləri" zamanı günü ondan xəbər gözləməklə başa vururdum. Onda biz Toğanada idik. Mərmi, top səsləri kəndə gəlirdi. Eminin telefonuna zəng çatmırdı deyə hövsələm bir damcı olmuşdu. Bir gün qapı açıldı və Emin içəri girdi. Rəngi ağappaq idi, üz-gözündən yorğunluq yağırdı. Gəlişinə o qədər sevinmişdim ki, dilim söz tutmamışdı.

Sonradan döyüşlər barədə az-az danışırdı. Hansı təhlükələrlə üz-üzə gəldiyini eşidəndə vahiməyə düşürdüm. Bir dəfə əsgərlərini necə

müdafiə etdiyindən danışanda dözməyib dedim:

– Bəs, öz canını niyə qorumurdun?

Dedi:

– Əsgərlərim hər şeydən önəmlidir. Əsas odur, onlara bir şey olmasın.

– Bəs, sənin ailən? – deyə soruşanda isə cavabı bu oldu:

– Öncə əsgərlərim!

Bu cavab onun işinə olan bağlılığından daha çox insanlığının göstəricisiydi.

Hətta əsgərlərinə evdən yemək bişirtdirib aparırdı ki, qoy, onlar da bayram günlərində ev yeməyini dadsınlar.

15 illik ailəlik dövrümüzdə bayram günlərində süfrəmiz açılmazdı evdə. Çünki Emin həmin günü əsgərlərinin yanında xidmətdə keçirərdi. Bizim bayram süfrəmiz Eminin evdə bizim yanımızda olması idi. Sayla deyə biləcək günlərimiz olub ki, biz bayram axşamlarında ailəlikcə bir yerdə olmuşuq. Hərbiçi, zabit ailəsi olmaq tamamilə başqa bir həyatdır.

Tez-tez düşündüklərimi dilə gətirir, ona: "Sən yaxşı insansan!" – deyirdim. Cavabı qəribə olurdu: "Mən insan deyiləm, mən zabitəm!" Sonra da sözlərini əsaslandırırdı:

– Bax, bir xəbər verəndə zabiti ayrı deyirlər, vətəndaşları ayrı. Demək ki, biz onlardan fərqliyik.

Bu sözü yadıma düşəndə uzun-uzun düşünürəm. Bu qədər müddətdən sonra öz-özümə

deyirəm ki: "Demək, zabit ölümü gözə alandır. İnsan ölümdən qorxar, canını qoruyar. Onlar isə elə deyildilər. Ölümün gözünün içinə dik baxırdılar. Hər anları ölüm demək idi və bu, onlara təsir etmirdi".

Evimizdə daim hərbiçi səliqəsi, nizamı olub. Bu, Eminin xarakterindən qaynaqlanırdı. Bütün əşyaları yerli-yerində olardı. Bir dəfə də görmədim ki, hansısa əşyası ortalıqda olsun. Təmkinliydi, çox danışmazdı, amma danışarkən də sanki heç bir sözü boşuna deməməyə çalışardı. Uzaqda da olsa, daim onun varlığını hiss etmişəm və özümün, ailəmizin güvəndə olduğundan əmin olmuşam.

Sentyabrın 27-də başlayan Vətən müharibəsinə qatılanda da bizə heç nə demədi. Gəncədə idik və onun təlimdə olduğunu güman edirdik. Düzdür, Polad Həşimov şəhid olandan ölkədə müharibə ab-havası vardı. Amma onda müharibənin başladığını və Eminin də ön cəbhədə olduğunu bilmirdik.

Gedişi hələ də gözümün önündədir. Axşam idi, yemək süfrəsi arxasına yenicə oturmuşduq. Birdən qaşları düyünləndi, sifəti ciddiləşdi və ayağa qalxdı ki:

– Gedirəm.

Dedim:

– Heç olmasa, bir tikə ye, gedərsən.

Dedi:

–Yox ey! Uşaqlar (əsgərləri) məni gözləyir! Beləcə, çıxıb getdi..."

Bir-birinə həyan edib qarmaqladığı barmaqlarına baxır Məhsəti xanım. Dediyi "getdi" sözünün mənasına nağılların "gedər-gəlməz" nisgilini də əlavə edib çoxdan; bunu duymamaq, görməmək mümkün deyil...

Anlar keçir. Bu anlarda şəhid mayorun xanımı "dünyada ən yüyrək olan"ın – düşüncənin qanadında illəri aşır və aydın səslə söhbətinə davam edir:

"Polad Həşimovu yaxından tanıyırdı Emin. Generalın şəhidliyi ona çox pis təsir etmişdi. Demişdi:

– General var, adı tarixdə qalır, general var, heç bir yerdə adı yada düşmür.

İndi düşünürəm ki, Emin daxilən Polad Həşimov kimi şəhid olmağı da arzulayıb... "Artilleriyanın atası" sayılan şəhid polkovnik İlqar Mirzəyev indiki Hərbi İnstitutda onun taqım komandiri olmuşdu. Artilleriyanın sirlərini ondan öyrənmişdi. Tanıdığı, bildiyi, hərb sənətini öyrənməyində əməyi olan polkovnikin ölümü isə onu dərin səssizliyə qərq etmişdi. Bu haqda mən də ondan heç nə soruşmurdum. Çünki polkovnikə olan sonsuz ehtiramını, rəğbətini əvvəldən bilirdim.

Əsgərlərinə sevgiylə yanaşmağı, onların hər birini qardaş, övlad gözündə görməyi isə onun daxilindəki Vətən, millət təəssübkeşliyindən qaynaqlanırdı. Əsgərlərini qorumaq, onları müdafiə etmək üçün sinəsini irəli verməkdən heç

vaxt çəkinmirdi. Son nəfəsində də əsgərlərini düşünüb...

Bir faktı da nəzərinizə çatdırım. Müharibədən sonra təsadüfən Eminin bu müharibədəki əsgəri ilə qarşılaşdıq. Müharibədən söz düşdü. Faktlara əsaslanaraq komandirinin Emin Süleymanov olduğunu söylədi. Danışırdı ki, "müharibədə susuzluqdan çox əziyyət çəkirdik. Bir gün içmək üçün çaydan su götürmək istəyəndə mayor Emin Süleymanov "geri qayıt" əmrini verdi və mən dərhal oranı tərk etdim. Mənim oranı tərk etməyimdən 4-5 saniyə keçmiş həmin yer düşmən tərəfindən mərmi atəşinə tutuldu. Bu gün sağ qalmağımı komandirimə borcluyam".

Yəni Emin belə məsuliyyətli, həssas, işini dəqiq bilən, əsgərinə önəm verən peşəkar zabit olub.

Son dəfə qardaşı ilə noyabrın 5-i, bizimlə noyabrın 7-si danışmışdı. Hər danışanda da uşaqları soruşardı. Onlardan sarı necə narahat olduğunu sözlərə tökməsə də, səsindən anlayırdım. Bəhmənə də, Emilyaya da yaxşı oxumağı, bədii ədəbiyyat mütaliə etməyi tövsiyə edərdi. Uşaqlarla birgə intellektual verilişlərə baxmağı sevərdi.

– Əsl vətəndaş, əsl insan kimi yetişməyə çalışın! – Daim bu cümləni təkrarlayırdı onlara.

Hara getsə Bəhməni özüylə aparırdı ki, aktiv olsun, ictimaiyyətə qaynayıb-qarışsın.

Səhər mənimlə, günorta isə uşaqlarla danışdı. Son sözü o oldu ki, "yoldayam". Sən demə, Şuşa yolunda imiş. Zabit yoldaşının xanımı ilə əlaqə saxlayıb öyrəndim ki, Qubadlıdan irəlidədirlər Emingil. Onda sanki çökdüm. Noyabrın 8-9-u da zəng çatmadı. Gecə 3-4 radələrində mənə qəribə hal oldu. Bacım deyir ki, ilk dəfəydi səni elə gördüm. Qəfil yataqdan qalxmışam, titrəyərək, üşüyərək, inil - tili səslə nəsə axtarırmış kimi otaqda var-gəl eləməyə başlamışam. Sonra oğlum Bəhmənin üstünü örtüb yatağa girdim. O səhnə heç cür yadımdan çıxmır.

İndi Emin yoxdur... Ondan sonra mən iki məqsəd üçün yaşayıram. Birincisi, övladlarını ataları şəhid mayor Emin Süleymanovun adına layiq yetişdirmək, ikincisi isə Eminin adını yaşatmaq.

Ara-sıra yuxularıma girir... Hətta hərdən onu canlıymış kimi görürəm. Onda sağlığına inanıram. Yuxumda ona nəsə deyə bilsəm, bir - cə sözüm bu olar: "Qayıt!"

Kövrəlir... Nəmlənmiş baxışlarını gizlətməyə belə cəhd göstərmir. Çünki özü də bilir ki, kirpiklərinə naxış olan məğrurluq şehidir...

"İnanıram ki, Emin qayıtsa həyatımız tamam başqa cür olar, mən başqa cür olaram. Daxilimə axan göz yaşlarımı heç kəs görmür. Amma həqiqətən, Emini bu dünyada əbədiyən itirdiyimin fərqinə varanda bütün varlı -

ğımla kainata səs salacaq hayqırtım və dərya qədər göz yaşlarım yaranır. Mən tək həyat yoldaşımı deyil, həm də qardaşımı, dostumu, arzularımı, güvəncimi, gələcəyimi itirmişəm. Bu gün sönük, mənasız həyat yaşayıram. Bircə övladlarıma görə yaşamaq məcburiyyətindəyəm. Acısı qürurundan ağır olan yükü daşıyıram. Mən Eminlə hər zaman fəxr etmişəm, bu gün də fəxr edirəm. Emin bir ömür bizimlədir, adı isə əbədiyyən Azərbaycan xalqı ilə...

"Aprel döyüşləri"ndən etibarən şəhid ailələrinə ən çox dəstək göstərənlərdən biri "Aprel şəhidi"miz polkovnik-leytenant Raquf Orucovun xanımı,"Zəfər Şəhid ailələrinə dəstək" İctimai Birliyinin sədri Sevinc Orucovadır. O, hər zaman şəhid ailələrinə öz dəstəyini əsirgəməyərək qürurla ömrünü bu yola həsr edir. Bu gün də böyük bacı kimi bizə dəstəkdir. Allah ondan və onun kimi mərd xanımlarımızdan razı olsun.

Çox təəssüf edirəm ki, ömrünü Vətənə xidmətə həsr etmiş və şəhid olmuş mayora bu gün orden verilməyib. Eminlə birgə dörd övlad itirmiş Tamara ana da buna görə çox narahat və məyusdur. Ailəsi olaraq, arzumuzdur ki, İmişlidəki 8 saylı məktəbə Eminin adı verilsin. Amma bununçün orden mütləqdir. Çox istərdik ki, bizim səsimizi eşitsinlər və şəhidimiz Müdafiə Nazirliyi tərəfindən ordenə layiq görülsün".

Dizimin bağı qardaş

"44 gün"ü unudulmaz edən nədir? Bu gün bu sualın cavabını axtarmaq bir yana dursun, bu sualı dilinə gətirən olsa belə, təəccüblənərəm. "44 gün"də yaşananların hamısı düşüncələrə, hisslərə, 30 illik yurd həsrətinin sonuna nida işarəsi idi! 44 günə sığan yaşanmışlara sual işarəsi yaraşmaz!

Şəhid mayor Emin Süleymanovun bibisi Nərimanova Şükufə xanım qardaş tərəfdən müharibə acısını iki dəfə yaşayan bacıdır. Zamanında qardaşı Bəhmən Süleymanovun müharibədən qayıdışını necə gözləmişdisə, illər sonra qardaşının yadigarı Emini də eləcə gözlədi. Ancaq zalım fələk bu dəfə Süleymanovlar ailəsinin üzünə gülmədi. Emin müharibədən qəhrəman, qalib mayor kimi qayıtdı, atasının yanında uyumağa...

Şükufə bibinin, Eminin qardaşlarının səsində məhz bu düşüncəmin əksini duydum. Ona görə də müsahibələr üçün hazırladığım sualların heç birini dilimə gətirmədim...

***

Bibisi Şükufə Nərimanovanın dedikləri: "Emin kimi oğul bu həyata tək-tək gəlir. Onun babası da, atası da əvvəldən sistem işçisi olublar. Bizim nəslimiz hər zaman Vətənin xidmətində qeyrətlə, namusla durub, öz vəzifələrini layiqincə yerinə yetiriblər.

Emin də nəslimizin bu müqəddəs vəzifəsini ta uşaqlığından davam etdirmək qərarı alıb. Hələ C.Naxçıvanski adına Hərbi liseydə təhsil alandan Vətənin keşiyində cəsarətlə dayanan zabit olmaq üçün çalışıb. Qismət elə gətirdi ki, fəxrimiz Emin şəhadətiylə də bizə böyük qürur yaratdı. Şuşanın azadlığı uğrunda gedən qanlı döyüşlərdə şəhidlik zirvəsinə ucaldı.

Emin yaşı neçə olmasından asılı olmayaraq, hər zaman böyük kimi davranıb, özünün müdrik məsləhətləriylə hər kəsə yol göstərib. Nəslimizdə hər kəs bir problemi, bir sualı olanda ona üz tutur, məsləhət alırdı. Emin eldən gedən oğul oldu.

Allah şəhid balamıza rəhmət eləsin, iki övladına, ailəsinə səbr və can sağlığı versin!"

***

Qardaşı Mehman Bəhmən oğlu Süleymanovun dedikləri: "Şəhid mayor Emin Süleymanov zabit ailəsində dünyaya göz açıb. Uşaqlıqdan hərbiçi olmağı arzulayırdı. Bu, təkcə dildə deyildi, onun hərəkətlərində, davranışında da hərbiçi olmaq arzusu özünü göstərirdi. Qardaşlarımın içində ən çox sevdiyim, həm bir zabit, həm də bir qardaş kimi ürəyimə daha yaxın bildiyim Emin idi. O, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) 1999-cu il məzunlarından idi. Məzun olduqdan sonra Murovdağda, Azərbaycanın ən qaynar nöqtələrində zabit kimi xidmət etmiş, "Aprel döyüşləri"ndə vuruşmuşdu. 44 günlük Vətən müharibəsində də keçdiyi döyüş yolu, göstərdiyi şücaət ölkə prezidentimiz cənab Ali Baş Komandan İlham Əliyev tərəfindən ona verilən medallarla qiymətləndirilib.

Müharibə vaxtı biz tez-tez əlaqə saxlamağa çalışırdıq. Bəzən mümkün olurdu, bəzən olmurdu. Ancaq hər danışığımızda o, bizi nikbin əhval-ruhiyyəyə kökləyirdi. Deyirdi: "Az qalıb, qələbə bizim olacaq!" Eminin gözəl xüsusiyyətlərindən biri o idi ki, şəxsi heyətinin qayğısına çox qalırdı, komandir kimi öz əsgərlərinə hər zaman hörmətlə, izzətlə yanaşırdı.

Mən qardaşımla hər zaman fəxr etmişəm. Bu gün də fəxr edirəm ki, ona verilən missiyanı qorxmadan, çəkinmədən başa vurdu və öz qəhrəmanlığı ilə adını xalqımızın, dövlətimizin tarixinə yazdırdı".

***

Qardaşı Elçin Bəhmən oğlu Süleymanovun dedikləri: "Mən Emindən yaşca xeyli balacayam. 1986-cı ildə dünyaya gəlmişəm. Emin

Cəmşid Naxçıvanski adına hərbi liseydə oxuyanda mən məktəbli idim. Hər ilin fevral və avqust aylarını səbirsizliklə gözləyirdim ki, Emin tətilə gələcək və biz onunla gəzməyə çıxacağıq. Balaca qardaşı olduğumçün hara getsə, məni də özüylə aparırdı. Məzuniyyət bitib Emin geri qayıdanda həmişə pis olurdum və onunçün çox darıxırdım. Sonra o, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul oldu. Hər dəfə atam Bakıya – Eminin yanına gedəndə mütləq onunla gedirdim ki, Eminlə görüşüm. 1999-cu ildə o, məzun oldu, Gəncədəki "N" saylı hərbi hissədə xidmətə başladı. Yenə hər tətildə onun yanına gedirdim. O, həmişə məni çox gözəl, mehribanlıqla qarşılayırdı. 2002-ci ildə tələbə adını qazandım. 2004-cü ildə isə atam vəfat etdi. Atamın vəfatından sonra çox çətinliklər çəkdim. Ailəmiz böyük olsa da, təkcə Emin mənə ata kimi sahib çıxdı, arxamda durdu, ruhlandırdı. Dedi: "Qorxma! Oxu, diplomunu al, mən sənə kömək edəcəyəm."

Dediyi kimi də elədi. Bütün tələbəliyim boyunca xərclərimi Emin qarşıladı. Məzun olub əsgərliyə getdim. Əsgərlikdə də təkcə Emin gəlirdi yanıma.

O, çox gözəl, mərd, qayğıkeş insan idi. Onun kimi qardaşım olduğuna görə hər zaman özümü şanslı hiss etmişəm. İndi də onunçün çox darıxıram. Eyni zamanda, böyük mərtəbəyə

yüksəldiyi, öz seçdiyi yolda axıra kimi getdiyi üçün onunla qürur duyuram!"

***

Bir neçə il əvvəl bir bayatı oxumuşdum: "Bacıların gözündə Arxalı dağdı qardaş". Gözlərimi yumub bu iki misranı durmadan təkrarlamışdım. Və anlamışdım ki, dağ olmaq da hər qardaşın işi deyil... Dağ olan qardaşın bacısı isə bəxtəvərdir.

Şəhid mayorun bacısı Şəhla xanım da özünü bəxtəvərlərdən sanıb həmişə... Bunu onun şəhid qardaşının şəkilinə sevgiylə baxan gözlərindən, əlindən qoymadığı bu şəkilə ehtiyatla sığal çəkən barmaqlarından da hiss etmək olur.

***

Bacısı Şəhla xanımın dedikləri: "Mən Emindən iki yaş kiçiyəm. O, həmişə mehriban, qayğıkeş, diqqətcil qardaş olub. Mənim övladlarım onun qucağında böyüyüblər. Ümumiyyətlə, Emin uşaqları çox sevərdi.

Məktəbə onunla birgə gedib-gələrdim. Həmişə məni qoruyardı. İmkan verməzdi kimsə, nəsə məni incitsin.

O, hərb sənətini seçəndə qürurlandım. Həmişə belə bir qardaşım olduğu üçün onunla fəxr etmişəm. Atam polis idi... Bəlkə də bu səbəbdən atamı itirəndən sonra yerinə Emini

qoydum. O, qapıdan içəri girəndə, elə bilirdim, atam gəlir. Eminin gedişiylə atam ikinci dəfə tərk elədi bizi. Hələ indi hiss edirəm ki, atam yoxdur *(kövrəlir)*.

Emini həmişə özümə arxa, dayaq bilmişəm. Nəsə olanda birinci ona güvənmişəm ki, qardaşım həll edər. Onun güclü əlini hər zaman çiynimdə hiss etmişəm. İndi isə arxamdakı dağ uçub-tökülüb.

Hərdən övladlarımıza baxıb deyirdim:

– Bunlar da əsgərliyə gedəcək.

Emin cavab verirdi:

– Dayı qoyar heç onlara bir iş qala?!

Onda başa düşmürdüm nəyi nəzərdə tutur. İndi anlayıram ki, sən demə, Qarabağ məsələsini, müharibəni deyirmiş.

Müharibə günlərini çox narahat keçirtdik. Amma Emin bizi aldadırdı. Həmin vaxt o, Gəncədə xidmət edirdi. Biz ondan soruşanda: "Hardasan?", deyirdi:

– Narahat olmayın, mən öz yerimdəyəm, hələ ki.

Biz onu Gəncədə bilirdik. Ancaq televizoru, mətbuatı izlədikcə də çox narahat olurduq. Elə bil, ürəyimə damırdı ki, o, çətinlikdədir. Hər gecə başımı yastığa qoyanda düşünürdüm:

– Ay Allah, mən burda rahat yatıram, görəsən, Emin nə vəziyyətdədir? Heç yatırmı?

Noyabr idi. Bir gün Eminin telefonuna zəng çatmadı. Onda çox narahat olduq. Durub Gəncəyə-xidmət etdiyi hərbi hissəyə getdik. Həmin hərbi hissəyə çatanda ürəyim pis oldu. Fikirləşdim ki, axı mən heç vaxt Eminin iş yerinə gəlməmişdim. Ancaq orda bizi aldatdılar. Dedilər: "Qorxmayın, yaxşıdır. Sadəcə, olduğu yerdə telefon şəbəkəsi tutmur, ona görə də zəng çatmır". Biz də ümidlə gözləyirdik ki, sağdır.

Bunu da deyim ki, Eminə qədər iki qardaşım, bir bacım və atam rəhmətə gedib. Bəlkə də şəhidliyin möcüzəsi budur ki, onlardan fərqli olaraq, mən Eminin ölümünü hiss etmirəm. Sanki o, yaşayır. Sanki mən onları itirmişəm, Emini isə yox. O, yenə də bizimlədir.

Tez-tez yuxularıma gəlir. Son dəfə onu Gəncədəki evinin üst mərtəbəsində, hündürdə gördüm. Gördüm ki, oradan aşağını seyr edir. Mən də həyəcanlanıram, ağlayıram ki, Emin gəlib. Mənim həyəcanlandığımı görüb yanıma gəlir və bir az da hökmlə deyir:

– Nədir? Nə özünü öldürürsən?! Yaxşı da, qurtar!

Mən də deyirəm ki:

– Bəs, sən bizi düşünmədin ki, getdin?

Deyir:

– Heç sizi düşünməmiş olaram?! Ancaq mən iki aya görə getdim, məcbur idim.

Hələ də, o "iki ay" nə idi, onu yoza bilmirəm".

Ana Vətənə can qurban edən Ata...

Sular gələr, göl olar,
Şaxta vurar, gül solar,
Mərd igidin balası,
Özü kimi mərd olar.

Vətən bizə babalarımızdan əmanət qalıb. Biz də onu bütün gözəlliyi və möhtəşəmliyiylə, əvəzsizliyiylə gələcək nəsillərə əmanət edib ömür qatarımızın son stansiyasında düşəcəyik.

Bir də var, Vətənə əmanət edilənlər... Canını Vətən torpağına fəda edən şəhidlərimizin ailələri, övladları Vətənə, Azərbaycan xalqına – bizə əmanət qaldı...

***

Oğlu Bəhmən Süleymanzadənin dedikləri: "Atamın bizimlə bağlı ən böyük arzusu yaxşı oxumağımız, sənət sahibi olmağımız, insan kimi, vətəndaş kimi yetişməyimiz idi. Boş vax - tı çox olmurdu. Amma yenə də bizə ayırmağa vaxt tapırdı, bizi gəzməyə aparırdı. Onun şə -

hidliyi bizə nə qədər qürur, fəxr versə də, atanın yoxluğu çox çətindir. Əvvəllər də mən onunla qürur duyurdum. İndi isə bir şəhid oğlu kimi əsas məqsədim onun bizimlə bağlı arzularını gerçəkləşdirmək, onun xatirəsini yaşatmaqdır. O, bizim paqon işçisi olmağımızı istəyirdi. İnşallah, mən də hərbi mühəndis olmağı düşünürəm".

***

Qızı Emilya Süleymanzadənin xatirələri: "Adımı atam qoyub. Onu həmişə yorğun görürdüm. İndi də onu bu cür xatırlayıram. Həmişə ona deyirdim: "İstirahət elə, dincəl". Boş vaxtında bizi harasa aparmaq istəyəndə deyirdim: "Lazım deyil, əsas sən dincəl". Amma o, boş vaxtı olan kimi bizi harasa gəzməyə çıxarardı, vaxtını bizimlə keçirməyə çalışardı.

Onun bizə ən böyük mirası ürəyimizdəki vətənpərvərlik hissidir. Bunu biz atamızdan öyrənmişik. Özü də o, bunu bizə sözləriylə deyil, hərəkətləri, seçdiyi və getdiyi yolla öyrə - dib.

Arzum gələcəkdə diplomatiya sahəsini (səfir) seçməkdir. Mən diplomat olub dövlətlər arasındakı münaqişəni aradan qaldırmaq istəyirəm. Əvvəllər, polis olmaq idi arzum. Müharibədən, atamın şəhidliyindən sonra isə diplomat olmaq arzum yarandı. Əgər dövlətlər arasında konfliktlər olmasa, müharibələr olmaz, heç bir uşaq atasız qalmaz".

Bir müəllim qüruru

Şəhid mayor Emin Süleymanovun vətənsevərliyi, qeyrəti, şücaəti hələ orta məktəb illərindən özünü göstərirdi. Bunu təkcə ailəsi demir, həm də müəllimləri, sinif yoldaşları onun hərbçi peşəsi seçməsini heç zaman təəccüblə qarşılamayıblar. Deyirlər ki, Emin məhz bu yolda getməli idi...

***

Orta məktəb müəllimi Arifə xanımın dediklərindən: "Müharibə dünyanın ən dəhşətli hadisəsidir. Təəssüf ki, bizim ölkəmizdən də yan keçmədi. Birinci Qarabağ müharibəsi az canlar almadı. İkinci Qarabağ müharibəsində də əsl qəhrəman oğullarımız həlak oldular. Onların arasında Emin Bəhman oğlu Süleymanov da var. O öz gözləri ilə müharibənin sərtliyini və dəhşətlərini görmüşdü. Və o günlərin ağrı-acısını heç vaxt unutmurdu. Çünki qardaşı Birinci Qarabağ müharibəsinin iştirakçısı idi.

Hələ biz yeddinci sinifdə oxuyanda A.Tvardovskinin "Vasili Tyorkin" və "Mən Rjev ətrafında öldürüldüm" adlı şeirlərini oxuyanda zahirən ciddi və məqsədyönül olan Emin demişdi: "Biz erməni işğalçılarının işgəncələrini görmüşük və buna son qoymaq üçün bizim nəsil hər şeyi öz yerinə qoymalıdır. Bizim nəsil torpaqlarımızı erməni tapdağından qurtaracaq. Və o gün çox da uzaqlarda deyil. Biz torpaqlarımızı vermərik. Bizim nəsillər yaşayıb yaratsın deyə oğullarımız ölməzliyə getdi".

Emin arzusunu çin etdi. Hərbiçi oldu və mayor rütbəsinə qədər qalxdı. Lakin həyat başqa cür tale yazdı. Həlak olan İmişli şəhər 5 №li məktəbinin məzunlarından biri də Emin Bəhman oğlu Süleymanov oldu.

Həyatını vətən yolunda qurban verən qəhrəmanlarımıza eşq olsun! Emin və onun kimi oğullarımızla hər zaman fəxr edirik!"

Dar günün dostu

Şəhid mayor öz rəşadəti, qoçaqlığı, qorxmazlığı ilə döyüş yoldaşlarının xatirələrində də yer tutub. Bu gün istər çiyin-çiyinə xidmət elədiyi yoldaşları, istərsə də tabeliyində olan əsgərlər onu sayğı ilə anır, vətənpərvərliyindən, şücaətindən danışırlar.

***

Polkovnik Elşən Rafiq oğlu Qapaqovun dedikləri: "Emin Süleymanov Toğanada yerləşən "N" saylı hərbi hissədə mənim tabeliyimdə minaatan batareyasında xidmət edib. Çalışqan, bacarıqlı artilleriyaçı olub. Əsgər yataqxanasında, dərslərdə yoxlamalar aparılanda onun bölməsi həmişə müsbət yöndə fərqlənib. Süleymanov daim əsgərlərin qayğısına qalırdı. Qismət elə gətirdi ki, Vətən müharibəsində cəbhənin müxtəlif istiqamətlərində döyüşlərə qatıldıq. Amma Murovda xidmət edənlərin hamısının xatirəsində bir Murov əzəməti var.

Emin Süleymanovun ilk döyüş yolu da Murov - dan başlayıb. Həmişə vəzifə borcunu şərəflə yerinə yetirib, vicdanlı, şərəfli, gözlərində daim qığılcım olan zabit kimi xatirəmdə qalıb".

***

Zabit yoldaşı, mayor İlham İsrafilovun xatirələri: "Emin Süleymanov mənim yaddaşımda hər zaman peşəkar, məsuliyyətli zabit, əsl insan kimi yaşayacaq. Onunla bağlı heç unutmadığım xatirə 2020-ci ilin 24 oktyabr tarixinə aiddir. Həmin gün biz Tovuzdan Seyfəlidəki toplama məntəqəsinə gəldik. Rəhmətlik Emini orda gördüm. Həmin məntəqədə bizi qabaqdakı döyüşlərə göndərmək üçün bölüşdürürdülər. Bilmirdik kim hara gedəcək. Hamı bir-biriylə görüşür, söhbətləşirdi. Hiss olunurdu ki, hamıda həyəcan var. Hətta bəzilərində qorxu da vardı ki, bu da normal idi. Çünki bizi nə gözlədiyini, nələrlə qarşılaşacağımızı və aqibətimizin necə olacağını bilmirdik. Ancaq Emində bir qram nə qorxu, nə də həyəcan vardı. Əsl təcrübəli zabit kimi deyib-gülürdü. Sevinirdi ki, torpaqlarımız uğrunda gedən döyüşdə iştirak edir. Elə hey deyirdi:

– Şükür Allaha ki, bu günlər bizə qismət oldu, torpaqlarımızı almağa gedirik!

Həmçinin, bizdə hansısa qurğularda problem, nasazlıq olanda ona müraciət edirdik.

Çünki hər şeydən çox yaxşı başı çıxırdı. Bu kimi problemləri həll etməkdə bizə çox köməkçi olurdu. Allah ona rəhmət eləsin!"

***

2-ci motoatıcı taborun komandiri, polkovnik-leytenant Nizami Şəbiyevin dedikləri: "Mayor Süleymanov Emin Bəhmən oğlu özünü intizamlı bir zabit kimi göstərib. Xidməti dövründə tabeliyində olan bölmədə nizam-intizamın, döyüş və ictimai-siyasi hazırlığın yüksək səviyyədə olmasına daim önəm verirdi. Bölmədə olan silahların və digər əmlakın qorunub saxlanılması, düzgün istismar qaydalarına riayət edilməsi diqqət mərkəzində idi. Tabeliyində olanlardan daim intizamlı olmağı tələb edirdi. Batareyada daxili qayda-qanunun saxlanılmasına, günün nizam qaydalarının şəxsi heyət tərəfindən yerinə yetirilməsinə, batareya üçün ayrılmış yaşayış və qeyri-yaşayış yerlərinin saxlanılmasına və düzgün istismar edilməsinə nəzarət edirdi. Tabeliyində olanların geyim formasını səliqəli və təmiz geymələrinə, zahiri görünüşlərinə diqqət yetirirdi. Vəzifə borclarının yerinə yetirilməsinə məsuliyyətlə yanaşırdı. Yüksək rütbəli rəislər və komandirlər tərəfindən verilən tapşırıqları vaxtlı-vaxtında yerinə yetirirdi. Xidmətində və intizamında fərqləndiyinə görə, dəfərlərlə həvəsləndirilmişdi. Hərbiçi peşəsini sevirdi. Hərbi geyimini səliqəli saxlayır, düzgün geyinirdi. Təşkilatçılıq qabiliyyəti yaxşı idi. Öz üzərində çalışırdı. Öz komandirləri və tabeliyində olanlarla münasibət qurmağı bacarırdı. Döyüş fəaliyyəti zamanı mərdlik və cəsarət nümayiş etdirmişdi".

***

Ehtiyatda olan hərbi qulluqçu, əsgər Nurlan Ədalət oğlu Cəfərlinin dedikləri: "Mən 2016-cı ildə əsgəri xidmətimdə komandirimiz olmuş kapitan Emin Süleymanov haqqında çox danışa bilərəm. Daim fəxr etmişəm ki, onun tabeliyində olan əsgərlərdən biri olmuşam. Yüksək savada malik, məsuliyyətli zabit olub. Əsgərlərinə ata qayğısıyla yanaşırdı. Hərbi sirləri saxlamağı, vətənpərvər, qorxmaz olmağı bizə aşılayırdı. Təlimlərdə bizə xüsusi diqqət göstərərdi.

2016-cı ildə "Aprel döyüşləri" başlayanda bizi Goranboy rayonu Tapqaraqoyunlu kəndi istiqamətində göndərdilər. Döyüşlərdə həmin kəndi düşmən hərbiçilərindən azad etdik. Çox güclü artilleriyaçı idi. Müharibə zamanı qorxmaz, mərd olmaq üçün bizi ruhlandırırdı. Əsgərlərini canından çox sevən komandir idi. Vəzifə borcunu şərəflə, qeyrətlə, məsuliyyətlə yerinə yetirərdi. İxtisası üzrə peşəkar zabit olub. Komandirimiz olan mayor Emin Süleymanov bizim fəxrimizdir və ən yüksək titula layiq görülməli zabitdir".

***

"Aprel döyüşləri"ndə Emin Süleymanovun tabeliyində vuruşmuş əsgər Bəhlul Arif oğlu Qədirovun dedikləri: "Mən 2016-cı ildə Murovdağ silsiləsi "N" saylı hərbi hissədə şəhidimiz mayor Emin Süleymanovun əsgəri olmuşam. O, hər zaman xidməti dövründə bütün əsgərlərinə qayğı və diqqətlə yanaşırdı. 2016-cı ildə "Aprel döyüşləri" başlayanda Goranboy rayonu Tapqaraqoyunlu kəndində düşmənə qarşı zərbələr endirirdik. Onun qoruduğu mövqenin bizə verdiyi imkanlar sayəsində xeyli sayda düşmən məhv edildi. Bizə hərbinin sirlərini saxlamağı, vətənpərvərliyi, qorxmazlığı aşılayırdı. Həmçinin, döyüşlərdə belə əsgərlərinə xüsusi qayğı göstərir və diqqətini əsirgəmirdi. O, öz "payokunu" biz əsgərlərə verirdi ki, döyüşlərə ac girməyək. Baxmayaraq ki, özü ac qalırdı.

Çox savadlı, peşəkar zabit idi. Bir artilleriyaçı zabit kimi komandirimizin taktikasını hər zabit bacarmazdı. Əsgərlərin sağ qalmağını canından üstün tuturdu. Tapqaraqoyunlu kəndində bir ərazidə idik, düşmən həmin əraziləri asanlıqla hədəf alırdı. Komandirimizin şücaəti nəticəsində, həmçinin, digər hərbi qüvvələrimizin qəhrəmanlığı sayəsində həmin ərazilərdə yaşayan dinc sakinlər düşmənin hədəfindən azad olundu. Mən fəxr edirəm ki, kapitan (mayor) Emin Süleymanovun tabeliyində olan əsgərlərdən biri olmuşam".

***

Kapitan Coşqun Şahin oğlu Hacıyevin dedikləri: "Mayor Emin Süleymanov Bəhmən oğlu orduda tanıdığım ən səmimi və dürüst zabitlərdən biri, mənim yaxın silahdaşım, dostum idi. Emini 2006-cı ildən tanıyıram. Təyinatımı "N" saylı hərbi hissəyə alıb xidmətimi davam etdirdiyim ilk gündən Emin Süleymanovla səmimi və dost münasibətlərimiz yaranmağa başladı. O, artilleriya zabiti idi, taborun minaatan batareyasında batareyanın baş zabiti vəzifəsində xidmət edirdi. İşini bilən, ixtisasını sevən zabit idi. Təmkinli, gülərüz, mehriban, eyni zamanda, tələbkar və əsgərlərinə qarşı qayğıkeş komandir idi. Onun batareyasında həmişə hər şey qaydasında olardı. Səliqəli və təmizkar olması onun komandirlik etdiyi bölməyə də sirayət etmişdi. Təlimlər və məşğələlər zamanı Emin öz bilik və bacarıqları ilə xüsusi fərqlənən zabit olub. Onun yüksək səviyyədə savadlı, bacarıqlı olması çox gənc ikən batareya komandiri təyin edilməsinə səbəb olmuşdu.

Kollektivdə sevilən və hörmətlə yanaşılan bir zabit, həm də, yaxşı insan idi Emin. Həyatçiçi həyatını sevirdi və bütün çətinlikləri təmkinlə qarşılayırdı. Ona tapşırılan bütün göstərişləri məsuliyyətlə, vaxtında yerinə yetirmək kimi xüsusi bacarığı və məharəti var idi. "Aprel döyüşləri" zamanı Emin öz batareyası ilə birlikdə savaşa qatılmış, ona tapşırılan

döyüş tapşırıqlarını vicdanla yerinə yetirmiş, heç bir itki vermədən öz şəxsi heyətini döyüşlərdə bacarıqla idarə etmişdir.

Emin müxtəlif hərbi hissələrdə xidmət etmişdir. Son illərdə Gəncə şəhərində yerləşən hərbi hissələrdən birində artilleriya zabiti idi. Vətən savaşı başlanan anda təcrübəli komandir kimi döyüşlərə atılmış, öz bilik və bacarıqlarını əsirgəmədən vətənə sədaqətlə xidmət etmiş, Murovdağ döyüşlərindən tutmuş, Füzuli, Şuşa döyüşlərinədək igidliklə vuruşmuşdu. Girdiyi hər döyüşdə düşmənə qarşı cəsarətlə savaşmış, qarşı tərəfin ağır itkilər verməsində, qaçmağa məcbur edilməsində mühüm rol oynamışdır. Çox təəssüf ki, savaşın bitməsinə çox az, hətta saatlar qalmış Şuşa şəhəri uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır. Son anda belə əsgərlərinin sevimli komandiri öz taleyini, öz canını düşünmədi, əsgərlərinin həyatını, vətəninin azadlığını üstün tutdu.

Allah məqamını uca etsin, əvəzedilməz komandir, əziz dostum! Sən şəhidlik zirvəsinə doğru bütün ömrü boyu şərəflə irəlilədin. Əsl zabit kimi yaşadın, komandir kimi vuruşdun və müqəddəs bir ada yüksəldin. Sən indi, nəinki, səni tanıyanların, doğmalarının, bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqsan!"

***

Emin Süleymanovun əsgəri olmuş, Vətən müharibəsi qazisi Musa Amil oğlu Əsgərovun dedikləri: "Mayor Emin Süleymanovu ilk dəfə Yevlaxdakı "N" saylı hərbi hissədə tanıdım. Həmin hərbi hissədə əsgəri xidmətdəydim. Mənim komandirim olmasa da, həmişə xatirimdədir. Ağır təbiətli, məsuliyyətli olduğu qədər də səmimi, tələbkar və zarafatcıl idi. Hətta belə bir xatirə danışım: tabeliyində olan əsgərlərdən biri hər dəfə əlini cibinə qoyurdu. Süleymanov onun şalvarının ciblərini tikdirmişdi ki, bu vərdişini tərgitsin.

2020-ci ilin Tovuz hadisələrində general-mayor Polad Həşimovun şəhid olduğunu eşitdikdən sonra yenidən könüllü olaraq ordu sıralarına qoşuldum və Gəncədəki "N" saylı hərbi hissədə xidmətə başladım. Şəhid mayor Emin Süleymanovla yenə eyni hərbi hissədə, eyni taborda xidmət edirdik. Onu orada görəndə çox sevinmişdim. Bir neçə gün sonra isə torpaqlarımızı düşmən tapdağından azad etmək üçün döyüşə yollandıq.

Vətən müharibəsində döyüş yolu ilk olaraq Kəlbəcərdən keçib mayor Emin Süleymanovun. Komandir o qədər məsuliyyətli idi ki, əsgərlərinə "bronjilet" və digər lazım olan sursatları tələb edərək döyüşə qatılmışdı.

Mayor Emin Süleymanov həmin taborun ilk və son mayor şəhididir ki, hər zaman öndə, mərdliklə, şücaətlə vuruşdu. Biz – döyüş yol -

daşları ona baxıb fəxr edirdik. O, bizimçün nümunə idi. Günlərlə ac-susuz olmağımıza baxmayaraq, yenə də birlikdə, çiyin-çiyinə düşmənin üstünə yeriyirdik. Düşmən üzərinə irəlilədikcə dönməz ordumuzun qarşısında va - himəyə düşürdülər. Biz hər birimiz Emin komandirimizə güvənərək döyüşürdük. Mənfur düşmən qorxusundan bizi mərmi yağışına tutsa da, geri çəkilmirdik. Qisas hissi hər şeydən böyük idi.

Əmrimiz Füzuliyə veriləndə həmin ərazilərdə mövqe tutmaq göstərişi gəldi. Füzulidən birbaşa Şuşaya döyüş əmri verildiyi andan müharibənin dəhşətli və ağır günləri başladı. Artıq noyabrın əvvəlləri idi. Maddi təminat çox aşağı idi. Xocavənddə su tapmaq belə çətin idi. Elə çuxurlardan su içirdik ki, o suya baxa bilməzsiniz. İrəlilədikcə, düşmən bizim gəlişimizi izlədikcə üzərimizə mərmi yağışı yağdırırdılar. Amma bununla belə, biz irəlilə - yirdik. Çox vahiməli olan meşələrdən keçirdik. Hətta siqareti olan döyüşçü siqareti əynindəki "buşlat"ın yaxasını irəli verərək çəkirdi. Si - qaretin közünü düşmən görməsin deyə belə edirdilər.

Bir onda gördük ki, komandirlərdən heç kim yoxdur. Səhər açıldı. Biz bir qrup könüllülərlə meşədə tək qalmışdıq. Bir neçə kilometr irəlilədikdən sonra mayor Emin Süleymano - vun könüllülərinə qoşulduq. Şuşa istiqamətində irəliləməyə davam etdik. Mayor Şuşada

mühasirədə qaldığımız zaman da neçə-neçə əsgər və döyüş yoldaşlarını xilas etdi. Şuşa-Daşaltı istiqamətində qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. Bu gün mən onun haqqında xatirələrimi bölüşürəmsə, həyatda varamsa, bunu birinci Allaha, sonra şəhid mayor Emin Süleymanova və məni xilas edən döyüş yoldaşlarıma borcluyam. Mayor son anında belə əsgərlərinə: "Özünüzü müdafiə edin!" – deyə qışqırdı. Bilirdi ki, şəhid olacaq, ancaq buna baxmayaraq, yenə də əsgərləri sarıdan narahat idi. Mən yaralı halda idim, özümdə deyildim. Bir az özümə gələndə ətrafıma baxdım, gördüm ki, komandir şəhadətə ucalıb. Bizimçün mayor Emin Süleymanov Milli Qəhrəmandan da üstündür. Allah ruhunu şad etsin! Ruhu qarşısında baş əyirəm! Allah ailəsinə, sevdiklərinə səbir vesin!"

***

Ehtiyatda olan mayor Zaur İltifat oğlu Əli - yevin dedikləri: "Sentyabrın 27-də başlayan Vətən müharibəsində artilleriyaçı olaraq Mu - rovdağın, Füzulinin, Xocavəndin, Şuşanın və Laçının azad olunması uğrunda gedən döyüşlərdə, əməliyyatlarda iştirak etmişəm. Və - tənimizin igid oğlu, "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilən mayor Emin Süleymanovla həm hərbi məktəbdə, həm də "N" saylı hərbi

hissədə bir yerdə xidmət etmişəm. Emin vətənpərvər, namuslu, qoçaq bir zabit idi. Həm - çinin, Emin səmimi, zarafatcıl, məclislərdə aktiv iştirak edən, kollektiv arasında böyük nüfuz sahibi olan insan idi. Həmişə deyərdi: "Vətənimizi işğaldan azad edəcəyik və bir qarış torpağı belə düşməndə qoymayacağıq!" Əfsuslar olsun ki, müharibə əziz dostlarımızı bizdən ayrı saldı və Emin şəhadətə ucaldı. Eminin əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaq. Eminin şən zarafatları bizim yadı - mızdan çıxmayacaq. Onun məzəli danışıqları, şirin gülüşü gözümüzün önündə canlanacaq. Emin öz ləyaqətli zabit ömrü və keçdiyi şərəfli döyüş yolu ilə vətənimizin parlaq gələcəyi olan gənclərimizə örnək olacaq və heç vaxt qəlblərdən silinməyəcək".

***

Polkovnik Əbil Durasan oğlu Əmirovun dedikləri: "Mayor Süleymanov Eminlə 2000-2002-ci illərdə birlikdə xidmət etmişəm. Emin əsl zabit, gözəl yoldaş, qayğıkeş dost və vətənpərvər insan idi. Bizim birgə yaddaqalan xid - mət günlərimiz olub. Təlimlərdə və tədbirlərdə daim müsbət cəhətləriylə fərqlənib. Tabeliyində olan şəxsi heyətin qayğısını çəkən koman - dirlərdən idi. Hər zaman özündən rütbəcə böyük komandir və rəislərə ehtiramla yana - şardı. Kollektiv arasında böyük hörmətə ma - lik idi. Vətən müharibəsi zamanı hərəmiz bir

istiqamətdə döyüşürdük. Onunla sonuncu dəfə telefonla danışanda bir-birimizə dedik: "İnşallah, Şuşada görüşərik!" Noyabrın 10-da istədim onunla əlaqə yaradım, zəng çatmadı. Eminin yanında olan zabitlərlə əlaqə saxladıqda artıq onun şəhid olduğu xəbərini aldım. Əvvəl inanmadım, sonra başqa mənbələrdən dəqiqləşdirdim ki, həqiqətən, Emin şəhid olub. Bu, mənə çox pis təsir elədi. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Yerləri cənnət olsun!"

Yazılanlar...

Yazılmayanlar...

"Vətən Müharibəsi Şəhidləri" kitabından:

Süleymanov Emin Bəhmən oğlu (1977-2020)

21 iyul 1977-ci il İmişli rayonunda anadan olub. 1995-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey), 1999-cu ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyul 1999-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Reaktiv artilleriya divizionunun reaktiv artilleriya batareyasının idarəetmə taqımı komandiri, reaktiv artilleriya batareyasının komandiri, motoatıcı taborun minaatan bata - reyasının minaatan taqımının komandiri, motoatıcı taborun minaatan batareyasının mi - naatan taqımı komandiri – batareyanın baş zabiti, motoatıcı taborun minaatan batareya -

sının komandiri, artilleriya divizionunun artilleriya batareyasının komandiri, motoatıcı taborun minaatan batareyanın komandiri və - zifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il noyabrın 9-da Şuşa rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunələri göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Cıdır düzü intizar,
Lalələrdən qan sızar.
Halay tutun, a qızlar,
Xilaskar əsgər gəlir!

Salam, xarıbülbülüm,
Ay mənim süsən gülüm.
Ya Qarabağ, ya ölüm!
Xilaskar əsgər gəlir!

Abdulla Qurbani
Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik
2021-ci il

"Böyük gələcəyə baxış" kitabından:

Mayor Emin Bəhmən oğlu Süleymanov

21 iyul 1977-ci ildə İmişli rayonunda anadan olub. 1995-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına hərbi lisey), 1999-cu ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirib.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 iyul 1999-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi verilib.

Reaktiv artilleriya divizionunun reaktiv artilleriya batareyasının idarəetmə taqımı komandiri, reaktiv artilleriya batareyasının komandiri, motoatıcı taborun minaatan batareyasının minaatan taqımının komandiri, motoatıcı taborun minaatan batareyasının minaatan taqımı komandiri – batareyanın baş zabiti, motoatıcı taborun minaatan batareyasının komandiri, artilleriya divizionunun artilleriya batareyasının komandiri, motoatıcı taborun minaatan batareyanın komandiri və - zifələrində xidmət edib.

"Mayor" hərbi rütbəsinədək yüksəlib.

2020-ci il noyabrın 9-da Şuşa rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən igidlik nümunələri göstərərək şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Abdulla Qurbani
Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik, 2022-ci il

Şəhadətlə tamamlanan parlaq xidmət yolu

Şəhid zabitimiz Emin Süleymanovun vətən uğrunda göstərdiyi qəhrəmanlıq gələcək nəsillərə nümunədir.

Qarabağımızı bizə qaytaran, 30 illik həsrətimizə son qoyan, namusumuzu təmizləyib, başımızı dik tutmağımıza səbəb olan 44 günlük Vətən müharibəmizin qəhrəmanlarından biri də Emin Süleymanovdur. Vətən sevgisi təkcə müharibəylə məhdudlaşmayan, ömrünü, cavanlığını, dincliyini, ailəsini, sonda isə canını bu yolda qurban verən fədakar, prinsipial, qətiyyətli bir zabitdən gedir söhbət. O zabit ki, uşaqlığı I Qarabağ müharibəsinə təsadüf etdiyindən atasını, böyük qardaşını cəbhədə, əli silahlı, vətənin keşiyində görmüşdü. Bu cür vətənpərvərlik hisslərivlə, torpaq məhəbbətiylə yoğrulmuşdu mayası. Ona şəhidlikdən başqa mərtəbə yaraşmazdı ki...

Vətənə xidmətlə keçən ömür...

Emin Süleymanov 21 iyul 1977-ci ildə İmişli rayonunda polis ailəsində doğulub. 1983-1992-ci illərdə Namiq Şirinov adına 5 saylı orta məktəbin rus bölməsində, 1992-1995-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə orta təhsil alıb. 1995-1999-cu illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) ali təhsil alaraq artilleriyaçı ixtisasına yiyələnib.

Ailədə 5 qardaş, 2 bacı böyümüşdülər. Atası polis mayoru Bəhmən Süleymanovu erkən itirmişdilər.

E.Süleymanov 1999-cu ildə Ali Hərbi Məktəbdən məzun olduqdan sonra Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə leytenant rütbəsində hərbi vəzifəsinə başlayır. Həyat yoldaşı Məhsəti xanım deyir ki, eyni ad-soyadlı kursant yoldaşıyla təyinat yerləri açıqlananda Emin səhvən elə bilir ki, Bakıya düşüb. Bu, ona çox pis təsir edir. Çünki onun hərbiçi kimi məqsədi paytaxtda qalmaq deyil, cəbhə bölgəsində xidmət etmək idi. Sonradan isə öyrənir ki, təyinatı Bakıya verilən kursant o, yox, adaşı imiş.

O, aldığı hərbi təhsilini və döyüş taktikalarını peşəkarcasına mənimsəyərək artilleriyaçı olur. Ordu sıralarında xidmət etməyə başlayan gündən Emin yalnız ön cəbhədə olub.

10 ilə yaxın ən çətin xidmət yerlərindən biri hesab olunan Murovda xidmət edib. Cavanlığının ən gözəl illəri Murovdağ silsiləsində keçən, mayor rütbəsinə qədər ucalan Emin divizion komandiri olub.

Məhsəti xanım deyir: "Eminin həyatı da, xidməti də çoxşaxəlidir. O, Gəncədəki, Murovdakı, Yevlax rayonu Aran qəsəbəsindəki, Balakəndəki, Qazax rayonundakı "N" saylı hərbi hissələrdə zabit kimi müxtəlif vəzifələrdə xidmət edib. Biz də onunla birlikdə gəzirdik xidmət yerlərini.

Onun hərb sənətini seçməyində əsas səbəb atasının polis olması olub. Uşaqlığından Emin bu sənətə maraq göstərərmiş. Atasından onun - çün hərbi forma, hərbi papaq tikdirməyini istəyib. Mənim də yadıma gəlir ki, o vaxt hərbiçilərin övladları məktəbə xüsusi maşınla gətirilərdi. Bunun özü də onda maraq yaratmışdı.

Biz Eminlə 2005-ci ildə ailə qurmuşuq. Onun hərbiçi olduğunu bilirdim və o cür də qəbul etmişdim. Hər zaman bir-birimizə sevgimiz, sayğımız olub. Ailəyə məbəd kimi baxmışam həmişə. Bütün arzularım, xəyallarım Eminlə bağlı idi. O, dediyim kimi, xidmətiylə əlaqədar çox tez-tez yer dəyişərdi. Ailə qurduğumuz vaxtdan etibarən Emin harda olubsa, mən də orda olmuşam. O, ailəyə çox bağlı idi. Bizsiz heç yerə getməzdi. Hərdən özüm deyirdim:

– Get harasa, bir az dincəl, eynin açılsın.

Deyirdi:

– Yox, birlikdə gedək.

Təbii ki, uşaqlarla birgə bölgədən-bölgəyə köçmək, ev daşımaq çətin idi. Bir növ, onunla birgə mən də xidmət edirdim. Amma bundan heç vaxt şikayətlənməzdim. Bəzən özü deyirdi ki:

– Çox yorulursan, hə?

Deyirdim:

– Yox, mən bunları sevə-sevə edirəm. Əsas yorulan sənsən.

Çünki o, həmişə çöldə, vətənin keşiyində idi. 2016-cı ildə Gəncəyə gəlmişdik. İlk dəfə idi ki, dörd il müddətində biz bir yerdə qalıb yaşadıq."

"Onun döyüşlərdə olduğunu qonşumuzdan öyrəndim"

2016-cı ildə "Aprel döyüşləri"nin də iştirakçısı olub Emin. O və tabeliyindəki topçu əsgərləri düşmənə qan uddurublar. Məhsəti xanım deyir ki, qəfil gələn zənglə ailəsindən xəbərsiz qatılıb döyüşlərə:

"Onda anası Tamara xanım bizimlə yaşayırdı. Hamımız oturmuşduq. Qəfildən Eminə zəng gəldi. Kimlə danışdısa, durdu ki: "Gedirəm!" Heç vaxt da hara getdiyini deməzdi. İsrarla soruşdum:

– Hara gedirsən?

– Yuxarıda bir yer var, ora gedirəm, – dedi.

Yenə də demədi döyüşlərə getdiyini. Mən onu Kəlbəcər tərəfdə zənn edirdim. Amma Tərtərdən atışmaları eşidirdik. Onun müharibədə – Tapqaraqoyunluda olduğunu qonşu - muzdan öyrəndim.

Emin ağzıbütöv, sirr dağıtmayan, söz danışmayan zabit idi. Biz-ailəsi onun zabit yoldaşlarını tanımaz, orda nələr baş verdiyini bilməzdik.

"Aprel döyüşləri" zamanı bütün günüm ondan xəbər gözləməklə keçirdi. Telefonu bağlı idi, əlaqə saxlaya bilmirdik. Əlacımız televizordan xəbər öyrənməyə qalırdı. Bir gün heç gözləmədiyimiz anda qapımız açıldı, Emin girdi evə. Çox yorğun, rəngi ağappaq gəlmişdi. Sonra döyüşlərdə baş verənlərdən danışırdı, dinləmək belə insanı vahiməyə salırdı. Onun əsgərlərini qorumaq üçün etdiyi fədakarlıqları eşidəndə deyirdim:

– Bəs, öz canını niyə qorumurdun?

Deyirdi:

– Əsgərlərim hər şeydən önəmlidir. Əsas odur ki, onlara bir şey olmasın.

– Bəs, sənin ailən? – deyə soruşanda aldığım cavab bu olurdu:

– Öncə əsgərlərim!

Bu dərəcədə əsgərlərinə, işinə bağlı insan idi. Həmişə danışanda deyirdi ki: "Mən insan deyiləm, mən zabitəm". Bu sözü mənə çox qəribə gəlirdi. O da deyirdi: "Bax, bir xəbər verəndə zabiti ayrı deyirlər, vətəndaşları ayrı.

Demək ki, biz onlardan ayrıyıq". İndiyə kimi də bunun nə demək olduğunu düşünürəm. Eminin timsalında fikirləşirəm ki, deməli, za - bit ölümü gözə alandır. İnsan ölümdən qorxar, canını qoruyar. Onlar isə elə deyildilər. Ölümün gözünün içinə dik baxırdılar. Hər anları ölüm demək idi və bu, onlara təsir etmirdi".

Məhz bu cür nümunəvi zabit olduğuna görə E.Süleymanov xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı və fəxri fərmanlarla təltif edilib.

Şəhadətə gedən yol...

Eminin taleyinə yazılmış növbəti müharibə Qarabağ zəfərinin ünvanı olan Vətən müharibəsi idi. Emin bu günü çoxdan, lap çoxdan gözləyirdi. Elə hey Qarabağın azad ediləcəyindən, müharibənin qaçılmazlığından danışarmış. Nəhayət, gözlədiyi o böyük gün gəlir. Azərbaycan Ordusunun mayoru olan Emin Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa

olunması üçün başlanan Vətən müharibəsində artilleriyaçı olaraq iştirak edir.

Bu dəfə də evdən gedərkən ailəsinə bir söz demir. Məhsəti xanım danışır ki, onda da ailəsi onu təlimə gedirmiş kimi bilir: "Düzdür, Polad Həşimov şəhid olandan ölkədə müharibə abhavası vardı. Amma onda müharibənin başla - dığını və Eminin də ön cəbhədə olduğunu bilmirdik. Sentyabrın 26-27-si idi. Emin təlimə getmək adıyla evdən çıxdı. Polad Həşimovu tanıyırdı, necə zabit olduğunu bilirdi. Fikirləşirəm ki, Eminin də arzusu onun kimi şəhid olmaq imiş. Çünki həmişə deyirdi: "General var, adı tarixdə qalır, general var, heç bir yerdə adı yada düşmür". Şəhid polkovnik İlqar Mirzəyev isə onun taqım komandiri olmuşdu".

Peşəkar komandir Murovdağın, Füzulinin, Xocavəndin, Şuşanın və Laçının azad olunması uğrunda gedən döyüşlərdə vuruşur. Tuğ kəndinin alınmasında Emin və artilleriyaçıları xüsusi fəallıq göstərirlər. 44 gün döyüşən Emin və topçuları dəqiq koordinatlarla hədə - fə aldıqları düşmənin strateji mövqelərini, bir çox texnikasını və xeyli sayda canlı qüvvəsini məhv ediblər. Mayor Emin Süleymanov 7 noyabr 2020-ci ildə Şuşanın Daşaltı kəndi istiqamətində gedən əməliyyatlarda iştirak edir. 9 noyabr 2020-ci ildə Laçın dəhlizi isti - qamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhadətə ucalır. Son sözləri

əsgərlərinə xitabən dediyi: "Özünüzü qoruyun, uşaqlar!"– olur.

Şəhid zabitimiz noyabrın 13-də ata yurdu Xubyarlı kəndində, vətən sevgisini, qorxmazlığı, cəsurluğu öyrəndiyi, idealı bildiyi atasının yanında torpağa tapşırılıb.

Qeyd edək ki, mayor Emin Süleymanov şəhadətindən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

O, son dəfə qardaşı ilə noyabrın 5-i, ailəsi ilə noyabrın 7-si danışmışdı. Hər danışanda övladlarını Məhsəti xanıma tapşırırmış. 14 yaşlı oğlu Bəhmən, 12 yaşlı qızı Emilyayla bağlı çox arzuları vardı Eminin. Hər ikisini polis gömək istəyirdi. Amma hər şeydən öncə insan olmağı, əsl insan, əsl vətəndaş kimi yetişməklərini nəsihət edərmiş. Məhsəti xanım deyir ki, indi iki məqsəd üçün yaşayır: övlad - larını ataları şəhid mayor Emin Süleymanovun adına layiq yetişdirmək və Eminin adını yaşatmaq: "Çox təəssüf edirəm ki, ömrünü Vətənə xidmətə həsr etmiş və şəhid olmuş mayora bu gün orden verilməyib. Eminlə birgə dörd övlad itirmiş Tamara ana da buna görə çox narahat və məyusdur. Ailə olaraq arzu - muzdur ki, İmişlidəki 8 saylı məktəbə Eminin adı verilsin. Amma bununçün orden mütləqdir. Çox istərdik ki, bizim səsimizi eşitsinlər və şəhidimiz Müdafiə Nazirliyi tərəfindən orde - nə layiq görülsün".

Ömrünü vətəninə, torpağına həsr edən, onun uğrunda canından keçən şəhidlər təkcə ailəsinin deyil, böyük bir xalqın əbədi qəhrəmanıdır. Emin Süleymanov da hər zaman bu xalqın qəlbində, Vətənin şanlı tarixində əsl igid, vətənpərvər döyüşçü kimi yaşayacaq!

Şahanə MÜŞFİQ
"525-ci qəzet" 2022. 1 mart. s. 13

Qələbə naminə can qurban verən qəh - rəman

"Torpaq əgər uğrunda ölən varsa, Vətəndir!" – deyib əcdadlarımız. Bu mənada Azərbaycanı "bəxti gətirən" torpaqlardan adlandıra bilərikmi?! Yüzillər boyu bu torpaqlar uğrunda axmayan qan, fəda olmayan can qalmadı. Coğrafi mövqeyimi, təbii sərvətlərimi, yeraltı, yerüstü varımı qonşu adıyla marığa yatmış düşmənlərimizi cəlb etdi, bilmirəm, amma bu ölkənin başı üzərindən qara bu - ludlar, torpağından yad əllər heç əskik olmadı. Elə hey sahib olmağa, talamağa, əbədi-əzəli yurdumuzu əlimizdən almağa çalışdılar. Onlar bu inadkar və arsız istəklərindən əl çəkmədikcə Azərbaycan xalqı öz vətənlərinə daha güclü, daha qüvvətli qollarla sarıldı. Bir qarış torpağını da düşmənə verməmək üçün çaba - ladı, canını, qanını əsirgəmədi. Lakin təəssüf ki, bəzən bacardı, bəzənsə...

1990-cı illərin əvvəllərində 70 illik əsarətdən sonra yenicə müstəqilliyinə qovuşmuş

xalq silkinib oyanmağa çalışırdı ki, ondan qat-qat güclü əllərin köməyiylə əsrlər boyu su-yumuzu içib çörəyimizi yeyən, süfrəmizdə ən başda oturan qonşularımız – xain ermənilər baş qaldırdılar, torpaq iddiasına düşdülər. Təbii ki, belə bir vəziyyətdə qələbə çətin, hətta mümkünsüz idi. Amma onda belə məğrur Azərbaycan övladları təslimiyyəti qəbul etmədi, son nəfəslərinə qədər döyüşdülər. 4-5 illik qanlı-qadalı döyüşlərdən sonra ən gözəl guşələrimizdən biri olan Qarabağ ermənilər tərəfindən işğal edildi. Düz 30 il torpaqlarımızın 20 faizi düşmən tapdağında əsarətdə qaldı. Bir milyondan çox məcburi köçkünümüz öz vətənlərində vətənsizlik dərdi yaşadı.

Nəhayət, 2020-ci ilin 27 sentyabr günü bütün bu əzabların, utancın sonu oldu. Xalqımız bu ədalətsiz gərdişə "dur!" deyərək öz ədalətini özü bərpa etmək qərarına gəldi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə Şanlı Ordumuz Vətən Müharibəsinə başladı.

Ermənilərin 4-5 ilə zəbt etdikləri torpaqlarımızı qəhrəman ordumuz cəmi 44 günə geri qaytardı, xalqımıza böyük Qarabağ zəfərini qazandırdı.

Bu qələbədə çox böyük payı olan, təkcə 44 gün deyil, uzun illər vətənə sədaqətlə xidmət edərək arzusunda olduğu şəhidlik məqamına ucalan igidlərimizdən biri də mayor Emin Süleymanovdur. 43 yaşında xalqına qələbəni bəxş

edərək gözlərini dünyaya əbədi yuman qəhrəman zabitimizin vətən sevgisi təkcə müharibəylə məhdudlaşmırdı. Emin Süleymanov vətənə xidmət edən, torpağı candan, qandan əziz bilən bir atanın ailəsində dünyaya göz açmışdı. I Qarabağ müharibəsində o, atasının – polis mayoru Bəhmən Süleymanovun və qardaşının vətəni qorumaq üçün necə irəli atıldıqlarını, canlarını necə heçə sayaraq vuruşduqlarını öz gözləriylə görmüş, uşaq yaddaşının bir küncünə həkk etmişdi. Onun mayası bu sevgiylə, bu ucalıqla yoğrulmuşdu. Belə bir ailənin oğlu, əlbəttə, şəhadətlə ucaldacaqdı adını, soyadını...

Bu gün qəhrəman şəhidimizin 45 yaşı tamam olur. Onsuz gələn bu yubileyini təkcə ailəsi deyil, böyük bir xalq qeyd edir.

Emin Süleymanov 21 iyul 1977-ci ildə İmişli rayonunda doğulub. 1983-1992-ci illərdə Namiq Şirinov adına 5 saylı orta məktəbin rus bölməsində, 1992-1995-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə orta təhsil alıb. 1995-1999-cu illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) ali təhsil alaraq artilleriyaçı ixtisasına yiyələnib.

E.Süleymanov 1999-cu ildə ali hərbi məktəbdən məzun olduqdan sonra Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə leytenant rütbəsində hərbi vəzifəsinə başlayır. Həyat yoldaşı Məhsəti xanım deyir ki, eyni ad-soy-

adlı kursant yoldaşıyla təyinat yerləri açıqlananda Emin səhvən elə bilir ki, Bakıya düşüb. Bu, ona çox pis təsir edir. Çünki onun hərbiçi kimi məqsədi paytaxtda qalmaq deyil, cəbhə bölgəsində xidmət etmək idi. Sonradan isə öyrənir ki, təyinatı Bakıya verilən kursant o, yox, adaşı imiş.

O, aldığı hərb təhsilini və döyüş taktikalarını peşəkarcasına mənimsəyərək artilleriyaçı olur. Ordu sıralarında xidmət etməyə başlayan gündən Emin yalnız ön cəbhədə xidmətini yerinə yetirib. 10 ilə yaxın ən çətin xidmət yerlərindən biri hesab olunan Murovda xidmət edib. Cavanlığının ən gözəl illəri Murovdağda keçən, mayor rütbəsinə qədər ucalan Emin divizion komandiri olub.

2016-cı ildə "Aprel döyüşləri"nin də iştirakçısı olub Emin. O və tabeliyindəki topçu əsgərləri düşmənə qan uddurublar. Məhz bu cür nümunəvi zabit olduğuna görə, E.Süleymanov xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı və fəxri fərmanlarla təltif edilib.

Lakin "Aprel döyüşləri" Qarabağ həsrətiylə, qələbə əzmiylə yaşayan bir zabit üçün az idi, çox az idi. O, bütün torpaqlarımızı azad etmək, bu qələbəni öz əlləriylə xalqına bəxş etmək arzusunda idi. Ona görə də, böyük müharibənin başlayacağı günü səbirsizliklə gözləyirdi. Uzun illər orduda xidmət edən zabit kimi o günün tezliklə gələcəyini bilirmiş Emin. Ordudakı hazırlıq məhz bunun xəbərçisi imiş. Amma nə ailəsinə, nə də yaxınlarına bu haqda bir kəlmə də demir. Onsuz da, işindən danışmağı sevməzdi cənab mayor. Ona görə də bu susqunluğu kimsədə şübhə oyatmır. Nəhayət, Eminin və Azərbaycan xalqının taleyinə böyük zəfər yazan Vətən müharibəsi başlayır.

Azərbaycan Ordusunun mayoru olan Emin Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində artilleriyaçı olaraq iştirak edir.

Bu dəfə də evdən gedərkən ailəsinə bir söz demir. "Aprel döyüşləri"ndə olduğu kimi bu müharibədə də ailəsi onu təlimə gedirmiş kimi bilir.

Peşəkar komandir Murovdağın, Füzulinin, Xocavəndin, Şuşanın və Laçının azad olunması uğrunda gedən döyüşlərdə vuruşur. Tuğ kəndinin alınmasında Emin və artilleriyaçıları xüsusi fəallıq göstərirlər. 44 gün döyüşən

Emin və topçuları dəqiq koordinatlarla hədəfə aldıqları düşmənin strateji mövqeləri - ni, bir çox texnikasını və xeyli sayda canlı qüvvəsini məhv edirlər. Emin Süleymanov 7 noyabr 2020-ci ildə Şuşanın Daşaltı kəndi istiqamətində gedən əməliyyatlarda iştirak edir. 9 noyabr 2020-ci ildə Laçın dəhlizi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhadətə ucalır. Onun son sözləri isə əsgərlərinə xitabən dediyi: "Özünüzü qoruyun, uşaqlar!" – olur. Şəhid zabitimiz noyabrın 13-də ata yurdu Xubyarlı kəndində, vətən sevgisini, qorxmazlığı, cəsurluğu öyrəndiyi, idealı bildiyi atasının yanında torpağa tapşırılıb.

Qeyd edək ki, mayor Emin Süleymanov şəhadətindən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Bu gün Emin Süleymanov adı təkcə oğlu Bəhmən, qızı Emilya üçün deyil, bütöv bir xalq üçün qürur mənbəyi, qələbə simvoludur. 43 illik həyatına şanlı zabit ömrü sığdıran şəhid mayorumuz bu gün 45-ci yaşında ruhən xalqının yanında, canını fəda etdiyi Vətənin başı üzərindədir. Əminəm ki, o, bu günlərdə xalqının növbəti böyük sevincinə də şahiddir. Axı uğrunda canını fəda etdiyi torpaqlara həyat qayıdıb, nəfəs qayıdıb. Cəmi bir ay öncə onun övladları şəhadətə ucaldığı Şuşada möh - təşəm tədbirdə iştirak edirdilər. İki gündür

işğaldan azad edilmiş torpaqlarımıza ilk köç başlayıb – iyulun 19-dan etibarən Zəngilan rayonunun Ağalı kəndinin sakinlərindən bir qismi – 50-yə yaxın ailə artıq öz yurd-yuvalarına geri dönüblər. Budur şəhidimizə ən böyük töhfə, budur qanlarının yerdə qalmadığının sübutu. Yeni həyatlar üçün öz həyatını qurban verənlərə biz məhz bunu borcluyuq – yeni və firavan həyatlar...

Mövludun mübarək, Şəhidim!

Şahanə MÜŞFİQ
"525-ci qəzet" 21.07.22

"Könlüm keçir Qarabağdan": qürurla hüznün vəhdəti

"Şuşa İli"nə həsr olunmuş respublika incəsənət festival-müsabiqəsinin yekun tədbirində unudulmaz anlar yaşandı

Məlum olduğu kimi, iyunun 1-də məktəblilər arasında "Şuşa İli"nə həsr olunmuş "Könlüm keçir Qarabağdan" adlı respublika incəsənət festival-müsabiqəsinin yekun konserti keçirildi. Uşaqların Beynəlxalq Müdafiəsi Gününə təsadüf edən festival-müsabiqənin yekun konserti Şuşa şəhərinin işğaldan azad edilməsindən sonra orada keçirilən ilk respublika uşaq tədbiri oldu.

Tədbir Təhsil Nazirliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və Şuşa Dövlət Qoruğu İdarəsinin tərəfdaşlığı ilə Şuşa Real Məktəbinin qarşısında təşkil olunmuşdu. Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini

məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva və digər dövlət rəsmiləri, tanınmış mədəniyyət və incəsənət xadimləri, şəhid övladları, festival-müsabiqənin qalibləri iştirak edirdilər.

Təhsil naziri Emin Əmrullayev tədbirin Şuşada təşkilinin qürurverici olduğunu qeyd edib. Şəhidlərimizin xatirəsini yad edən, qazilərimizə Allahdan şəfa diləyən təhsil naziri Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti və Şanlı Ordumuzun qələbəsi sayəsində bu gün gələcəyimiz olan uşaqların azad Şuşada bayramı qeyd etməsini xüsusi vurğulayıb. Nazir çıxışının sonunda bütün uşaqları 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, əvvəlcə, 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bütün uşaqları təbrik edib. Hər bir vətəndaş üçün dövlət və onun mənafeyinin öndə gəldiyini qeyd edən komitə sədri müsabiqənin gənclərimizin vətənpərvər ruhda yetişməsində oynadığı roldan danışıb.

Konsert proqramında 150-yə yaxın məktəbli çıxış edib; şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeir və mahnılar səsləndirilib, ədəbi-bədii kompozisiyalar nümayiş olunub. Tədbirin sərgi hissəsində müsabiqə qaliblərinin rəsm və əl işlərinə baxış keçirilib.

Qeyd edək ki, respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin, lisey və gimnaziyaların (incəsənət yönümlü ümumtəhsil müəssisələri istisna olmaqla) istedadlı şagirdləri arasında iki yaş qrupunda (11-14 yaş və 15-17 yaş), 4 nominasiya (ifa, rəqs, dram sənəti, təsviri incəsənət və dekorativ tətbiqi-sənət) üzrə keçirilən, "Şuşa İli"nə həsr olunmuş festival-müsabiqəyə ümumilikdə 10 mindən çox istedadlı şagird qatılıb. Festival-müsabiqənin məqsədi uşaq və gəncləri Qarabağın Azərbaycanımızın mədəniyyəti və tarixindəki yeri, işğal illəri və işğaldan sonrakı dövrü ilə tanış etmək, uşaqları milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə etmək, onların bədii-estetik səviyyəsini yüksəltmək idi. Həmçinin, incəsənət və mədəniyyətin ayrı-ayrı növləri üzrə istedadları üzə çıxarmaq və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, təhsil alanları vətənpərvərlik, torpağa, dövlət rəmzlərinə, tariximizə hörmət ruhunda tərbiyə etmək, məktəblilərin asudə vaxtlarını təmin etmək də müsabiqənin məqsədləri sırasındadır.

Bu mötəbər tədbirdə iştirak edən şəhid övladları arasında Şuşa fatehi, şəhid mayor Emin Süleymanovun yadigarları Bəhmən və Emilya Süleymanovlar da vardı. 15 yaşlı Bəhmən və 14 yaşlı Emilya ilk dəfə idi ki, atalarının şəhid olduğu torpağa – Şuşaya ayaq basırdılar. Bu, onlar üçün nə qədər qürurverici

olsa da, atalarının yoxluğunun hüznü gözlərindən bir an da olsun çəkilməyib. Belə bir müqəddəs səfərdən dönən məktəblilərlə görüşüb Şuşa səfərinin, bu möhtəşəm tədbirin yaddaşlarındakı və duyğularındakı izindən söhbət açdıq. Bəhmən danışır:

"Şuşa mənim atamın şəhadətə ucaldığı yerdir. O, noyabrın 9-da: qələbəyə, sadəcə, saatlar qalmış Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. Əlbəttə, bir övlad üçün atasını itirmək ən ağır duyğulardan biridir. Ancaq biz bu kədərlə, hüznlə bərabər, həm də hər zaman atamızla fəxr edib, qürur duymuşuq. Çünki bizim atamız məhz torpaqlarımız uğrunda, 30 illik Qarabağ həsrətimizin bitməsi uğrunda canından keçib. O, hər zaman vətənini, millətini, Qarabağı düşünən bir zabit olub və bizə də hələ uşaq yaşlarımızdan bu sevgini, bu hissləri aşılayıb. Şuşaya gedərkən həm içimdə ata həsrəti, onun yoxluğunun qəlbimdəki hüznü vardı, həm də qürurluydum. Çünki əgər mən və mənim kimi yüzlərlə, minlərlə azərbaycanlı bu gün Şuşaya gedə bilirsə, orda əzəmətli himnimiz səslənir, şanlı bayrağımız dalğalanırsa, bütün bunlar atam mayor Emin Süleymanov və onun kimi üç minə yaxın şəhidimizin, minlərlə qazimizin və müharibə iştirakçılarımızın sayəsindədir. Şuşa haqqında çox eşitmişdim, oxumuşdum, şəkillərdə, videolarda görmüşdüm. Amma onun bu qədər möhtəşəm, bu qədər gözəl ola biləcəyini dü-

şünməzdim. Şuşa, doğrudan da, həm havası, həm mənzərəsi, həm də coğrafi mövqeyiylə bənzərsiz şəhərdir. Bu ecazkar şəhərə uşaqlığımızdan bəri bizə Şuşa haqqında danışan atamla getməyi daha çox istərdim, əlbəttə. Əminəm ki, atamla bu səfərimiz çox gözəl və unudulmaz olardı. Heyf ki, qismət olmadı. Biz Şuşaya mayın 31-də getdik. Elə həmin gün axşam şəhəri gəzməyə çıxdıq. Xan qızı Natəvanın evi və bulağı, Bülbülün ev muzeyi, Vaqifin məqbərəsi, Şuşa qalası kimi tarixi tikililərlə yanaşı, Şuşanın qədimi küçələri, bir zamanlar soydaşlarımızın yaşadığı, sonra isə düşmən tərəfindən dağıdılmış binalar, evlər, tikililər insanı, sanki, zamanda səyahətə səsləyir. Biz orda bir musiqi məktəbi gördük; tamam dağılmışdı, uçuq-sökük divarları qalmışdı. İçində bir neçə piano da vardı. Ondan başa düşülürdü ki, bura nə vaxtsa musiqi məktəbi olub. Onu görəndə bir az da düşmənə nifrətim artdı. Onlar təkcə insana, ölkəyə deyil, daşa, torpağa, mədəniyyətə, musiqiyə də qənim kəsiliblər. Şuşanın havasından da danışa bilərəm. Bu, sanki bir möcüzə idi. Cıdır düzünün tərtəmiz havasında insanın ciyərləri oksigenlə dolur. Mən hələ bu qədər təmiz hava ilə nəfəs almamışdım. Cıdır düzü çox gözəldir. Hər tərəfdən meşələrlə əhatələnmiş qayalıqlar əzəmət simvoludur. Biləndə ki, bizim şəhidlərimiz, hərbiçilərimiz məhz bu qayalardan dırmaşaraq min bir zəhmətlə Şuşanı əsirlikdən xilas ediblər, qürurlanmamaq mümkün deyil! Həmçinin, biz gördük ki, Şuşanın, az qala, hər yerində təmir, yenidənqurma işləri gedir, dağıdılmış binaların bərpası həyata keçirilir. Bəzi binaların üstündə şəhidlərimizin, Şuşa uğrunda döyüşmüş hərbiçilərimizin adları vardı. Biz də şəhid övladları olaraq öz atalarımızın adını yazdıq həmin divarların üstünə. Bu gün atalarımız oraya gedə bilməsələr də, davamçıları olaraq biz onların varlıqlarını, adlarını Şuşaya apardıq".

Şəhid mayorumuzun qızı Emilya da Şuşadan kövrək və unudulmaz hisslərlə qayıdıb. O, deyir: "Əgər biz əvvəllər atamızın yoxluğuna daha çox üzülür və heyfsilənirdiksə, indi onun hansı amal uğrunda özünü fəda etdiyini görüb daha çox qürurlandıq, mayor Emin Süleymanovun övladları olduğumuz üçün fəxr elədik. Sanki indi daha çox anlayırıq ki, bizim atamız hədər yerə canından olmadı. Biz səbəbsiz yerə atasız qalmadıq. Bu sayədə bizim vətənimiz, torpağımız azad olundu".

Qəhrəman şəhidimizin yadigarları bu səfərdən özləriylə Şuşa torpağı da gətiriblər. Deyirlər ki, atalarının şəhid olduğu torpağı həm özlərində saxlayacaq, həm də onun məzarına aparacaqlar. Bəhmənin bir arzusu da böyüyəndən sonra Şuşada ev sahibi olmaq, orada yaşamaqdır.

Fikrimcə, qəhrəman tək şəhidlərimiz, hərbiçilərimiz deyil, eyni zamanda, onların məğ-

rur ailələri, atasız qalan övladlarıdır. O övladlar ki, bu gün atasız olmalarına rəğmən, torpağın azadlığına, xalqın qələbəsinə qürurlana, sevinə bilirlər. O övladlar ki, atalarının yoxluğu onların daxilində mərhəmət, vətən sevgisi, torpaq məhəbbəti, xalq təəssübü kimi duyğuları oyadıb və onlar bu gün qəhrəman atalarının adlarına layiq şəkildə başıdik, alnıaçıq yaşayır, şəhidlərimizin adını yaşadırlar.

Bütün şəhidlərimizə Allahdan rəhmət dilə - yir, yadigarlarına uzun və sağlam ömür arzu edirik!

Şahanə MÜŞFİQ
"525-ci qəzet" 20.06.2022

Hərb tariximizə adını yazan mayor

İndi təqdim edəcəyimiz süjet vətən müharibəsində qəhrəmanlıq göstərən igid zabitimiz Emin Süleymanov haqqındadır. Xidmət etdiyi hərbi hissənin artilleriya minaatan batareyasının komandiri olan mayorun keçdiyi şərəfli döyüş yolunu birlikdə izləyək.

44 yaşlı mayor Emin Süleymanov ömrünün 25 ildən çoxunu hərbi ilə bağlayıb. O, Ali Hərbi Məktəbi artilleriya üzrə başa vurduqdan sonra şərəflə öz sahəsi üzrə minaatan batare - yasında xidmətə başlayıb. Xidməti dövründə nümunəvi, intizamlı, eləcə də, sərrast atıcı olan Emin Süleymanov "Aprel döyüşləri"ndə əsl qəhrəmanlıq göstərib. Düşmənə sarsıdıcı zərbələr vurub. Onun bu xidmətləri Müdafiə Nazirliyi tərəfindən fəxri fərmanlarla qiymətləndirilib. Vətən müharibəsi başlayanda isə mayor Murovdağ yüksəkliyi, Füzuli, Xocavənd, Laçın ətrafında gedən döyüşlərdə igid - lik göstərib. Ağır döyüşlərin getdiyi Şuşa igidi şəhidlik zirvəsinə ucaldıb.

Tamara Süleymanova (şəhidin anası): "Onun ataya qarşı, anaya qarşı, torpağa qarşı o qədər gözəl xasiyyəti var idi. Deyirdim ki: "Bala, müharibədir. Bəs mən necə olacağam?" Deyirdi: "Ana, mən getməyim, o, getməsin, bəs, kim getsin?! Biz vətəni qorumalıyıq!" Balam vətən yolunda gedib".

Məhsəti Süleymanova (şəhidin həyat yoldaşı): "İşlədiyi hərbi hissədə böyük hörmətə malik idi, qüsursuz xidmətləri ilə fərqlənirdi, ailəcanlı idi, anaya böyük hörməti var idi. Demək istəyirəm ki, o, elə bir zirvəyə ucaldı ki, onun xarakterini göstərdi ki, o, necə insan idi. O, əsl hərbiçi idi".

Ölümündən sonra "Cəsur döyüşçü", "İgid - liyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilən qəhrəman zabitin keçdiyi şərəfli yol onun övladları üçün də əsl qəhrəmanlıqdır. Oğlu Bəhmən və qızı Emilya bütün Azərbaycan xalqı kimi ataları ilə fəxr edirlər.

Bəhmən Süleymanov (şəhidin oğlu): "Müha - ribədən danışırdı, necə iştirak etdiyini deyirdi. Əsgərlərini qorumasını deyirdi. Mənim atam ailəyə qarşı çox diqqətli olub. Vətənə ondan da çox diqqətli olub. Ona görə də bugünkü gün şəhid olub. Mənim fikrim də, inşallah, atam kimi hərbiçi olmaqdır".

Emilya Süleymanova (şəhidin qızı): "Həmi - şə ona baxanda qəhrəman görürdüm. Öz işinə həmişə çox vaxt ayırırdı. Amma ailəcanlı idi,

bizi də çox sevirdi. İstəyirdi ki, biz vətənə xeyirli övlad olaq".

Şəhid zabitin övladları ərazi bütövlüyü bərpa olunan, azad, suveren ölkənin bir vətəndaşlarıdır. Bunu Emin Süleymanov kimi şəhidlərimiz qanları və canları bahasına bizə bəxş ediblər.

Elnur Vahidoğlu
kepeztv.az
23.02.2021

Esmira Günəşin "Cənnətin sakinləri" kitabından:

"Mayor Süleymanov Emin Bəhmən oğlu 21 iyul 1977-ci ildə İmişli rayonunda polis ailəsində anadan olub. 1983-cü ildə Namiq Şirinov adına (rus bölməsi üzrə) məktəbin birinci sinfinə daxil olub. 1995-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 1999-cu ildə Bakı Ali Birləşmiş Komandanlıq məktəbini bitirib. 20 iyul 1999-cu ildə leytenant hərbi rütbəsi alıb.

Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmət edib. 10 ilə yaxın Murovdağ silsiləsində xidmət edərək baş leytenant rütbəsinə yüksəlib. 2016-cı ilin "Aprel döyüşləri"ndə iştirak edib və Prezidentin sərəncamına əsasən, "Qüsursuz xidmətə görə" I, II, III dərəcəli medallarla təltif olunub. Bundan əlavə, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif olunub.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində iştirak edib və döyüş yolu Kəlbəcər, Füzuli, Xocavənd, Şuşa, Daşaltıdan keçib. 9 noyabr Daşaltı-Laçın istiqamətində gedən döyüşlərdə igidlik göstərərək, son nəfəsinə kimi irəliləyərək şəhidlik zirvəsinə ucalıb. Şəhid olduqdan sonra mayor Emin Süleymanov Prezidentin sərəncamına əsasən, "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Ailəli olan qəhrəmanımızın iki övladı vətənə əmanət qalıb.

Təzədən doğulasan

Oğlun, qızın sənintək qəhrəman böyüyəcək,
Qürurla: "Mənim atam şəhid olub!" deyəcək.
Fəxr edəcək sənինlə azad olan bu ölkən,
Sən qələbə qazandın döyüşlərdə sağ ikən.

İndi sənin şəninə yazılır şeirlərim,
Adın düşür kitaba qəhrəman igid kimi.
Hər kəsin sevimlisi, cəsur döyüşçümüzsən,
Sən heç zaman qırmazdın, incitməzdin
heç kimi.

Amma söhbət vətəndən, torpağından
gedəndə
Şirə dönüb düşmənə bildirmisən həddini.

Gözlərini oymusan o mənfur düşmənlərin,
Bircə zərbə vuraraq sındırmısan qəddini.

Sənə min bir medallar, ordenlər, mükafatlar
Verilsə də, az olar, sən qəhrəman oğulsan.
Deyirəm ki: "Şəhidim, sevindirib ailəni
Bu dünyaya qayıdıb, yenidən doğulasan".

Bayram etsə el-oban gəlişinlə yenidən,
Bu dəfə ömür yolun belə qısa olmaya.
Yaşayasan əbədi, ömür-günün xoş keçə,
Heç düşməyə ayrılıq, gözlərimiz dolmaya.

12.02.2022

Ellər səni söyləyir

Ruhuna dualar edərək, sənə dönə-dönə rəh - mət söyləyərək bu qəmli hekayəti sənə həsr edirəm, Emin qardaşım.

Bu günlərdə – Vətən müharibəsinin şanlı qələbəmizlə yekunlaşdığı ərəfədə hamı sən- dən danışır. Səni deyirlər, Şəhid eloğlumuz. Bu dünya, onsuz da, müvəqqətidir; hər gələn bir ömür möhləti yaşamağa məhkumdur. Müddət çox da ola bilər, az da. Bu, bizi yaradan Alla - hın qismətidir.

Dünyada "alın yazısı" deyilən bir məfhum var. Belə deyirlər ki, dünyaya göz açan hər şəxsin alın nahiyəsinə ulu Yaradan tərəfindən bir səhifə açılır ki, orada qarşıda onu gözlə- yən, qarşılaşacağı nə varsa, yazılır, qeyd olu - nur. Nə dərəcədə doğrudur, ya yanlış, deyə bilmərəm. Bildiyim budur ki, kainata qədəm basan hər bir şəxsin öz taleyi, qismәti olduğuna inanıram. Doğrudur, oxşar talelər ola bilər. Ancaq onlar bir-birinin eynisi ola bilməz.

Haradasa, nədəsə fərqliliklər mütləq olur. İndi sənin – Emin Bəhmən oğlu Süleymanovun həyatı və fəaliyyəti çoxlarından fərqlidir, yaddaşlara həkk olunan qəhrəmanlıq səhifələri ilə doludur. Heç bilmirəm ki, ilkin olaraq, haradan başlamaq daha yaxşıdır. Bəlkə, elə onu diqqətə yetirim ki, bu dünyada qismətinə cəmi-cümlətani 43 illik bir ömür payı düşdü. Hansı ki, İlahi tərəfindən verilmiş 43 illik ömrün hər saatını, hər gününü səmərəli, gərəkliklə yaşadın, el üçün, vətən üçün, müstəqil və suveren Azərbaycanımız naminə çox şərəfli, unudulmaz insan, azərbaycanlı obrazı formalaşdırdın.

Faktlara nəzər salaq:

1977-ci ilin iyul ayının 21-də İmişli rayonunda anadan olmuşdun. Tale elə gətirdi ki, təhsilini İmişli şəhər 5 saylı tam orta məktəbdə (rus bölməsi üzrə) aldın. 8 illiyi bitirən kimi qəlbinin hökmü və istəyi ilə arzuladığın yerə – C.Naxçıvanski adına hərbi liseyə üz tutdun. Çünki hərbiçi olmaq, şanlı Azərbaycan zabiti kimi yetişmək arzusuna hələ lap uşaqlıq çağlarından düşmüşdün. Liseyi bitirdikdən sonra ali təhsil almaq ideyanı reallaşdırdın. H.Əliyev adına Ali Hərbi Məktəbə verilən imtahanlarda uğurlu nəticələr əldə edib tələbə oldun. Bu tanınmış məktəbdə hərb elminin, hərbiçi peşəsinin sirlərini qədərincə öyrəndin,

mənimsədin. Sonra isə peşə fəaliyyətinə başladın. Peşəkarlığın artdıqca rütbələrin də yüksəldi.

Azərbaycanımızın ən gərgin, ehtiyac duyulan nöqtələrində çalışdın, təcrübə topladın. Dəfələrlə öz döyüşkənliyin və cəsarətinlə yüksək inam və etimadlar qazandın.

Biri elə "Aprel döyüşləri". Xalqımızın qəhrəmanlıq səhifələrinə qızıl hərflərlə yazılmış o qısaömürlü müharibədə qeyri-adi hünərvərliyin diqqət çəkdi. Neçə-neçə medallara, təltiflərə, təşəkkür və fəxri fərmanlara layiq bilindin. Ancaq düşmənə olan sonsuz nifrət, Vətənə məhəbbət hissləri səni rahat buraxmırdı.

Vəhşi, qaniçən, xalqımıza, torpağımıza düşmən kəsilən ermənilərdən qanlı, həm də, köklü qisas almaq istəyirdin. Məhz o günü səbirsizliklə, həyəcanla gözləyirdin. O gün də gəldi və sən döyüşlərə atıldın.

Şir ürəkli, polad iradəli bir azərbaycanlı mayor olaraq, döyüş yolun Kəlbəcər, Füzuli, Cəbrayıl, Hadrut və digər bölgələrimizi əhatə etdi. Artilleriya komandiri olaraq, hər gün yeni-yeni zəfərlərə imza atdın. Hamı – döyüş yoldaşların da, komandanlıq da səndən deyir, səndən söz açırlar. İndi budur, qardaşın – İmişli Rayon Təhsil Şöbəsinin metodisti, gözəl ziyalı Mehman müəllimlə münasib bir guşədə əyləşib sənlə bağlı söhbətləşir, döyüş şüca -

ətlərini, misli-bərabəri olmayan taktiki gedişlərini müzakirə edirik.

Mehman müəllim çox kədərli, hüznlü bir görkəmdədir, ancaq həyat yolunla bağlı fakt və rəqəmləri xatırladanda hiss edirik ki, içindəki qürur, fəxarət hissləri üzə çıxır: "Həm bir Azərbaycan ziyalısı kimi, həm də doğması ölüm-dirim savaşına atılan bir qardaş olaraq, 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsinin hər anını, hər saatını sonsuz həssaslıq və təşvişlə izləyirdim. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin mahir sərkərdəliyi altında ordumuz – qəhrəman zabit və əsgərlərimiz ilk gündən rəşadətlə start götürdülər. Prezidentimizin hazırladığı, həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı düşmənimiz üçün gözlənilməz olduğu qədər də qeyri-adiliyi ilə diqqət çəkirdi. Hər gün yeni-yeni zəfərlərin şahidi olurduq, ermənilərin necə miskin günə düşdüklərinə, qarşımızdan it kimi qaçdıqlarına şahidlik edirdik. Qardaşım Eminlə, tez-tez olmasa da, arasıra telefon əlaqələri qururdum. Xatırlayıram ki, ən son danışığımız noyabr ayının 7-də, axşamüstü oldu. Az danışdı, ancaq inamlı danışdı. Dedi ki: "Gedirik, irəliyə gedirik. Axırına çıxmaq ərəfəsindəyik bu alçaqların. Sonu çatıb düşmənin. İlan başı kimi əzirik, öldürürük, qisasımızı artıqlaması ilə alırıq. Sabahı, uzağı birisi gün danışarıq, qardaş. Yəqin ki,

sonu olacaq bunun. Yaxşıdır, daha da yaxşı gözlənilir. Sağ ol, narahat olma. Görüşərik, inşallah!" – dedi və telefonu qapatdı.

Noyabrın 8-i və 9-u yenə əlaqə saxlamaq istədim qardaşımla. Alınmadı. O anda ürəyimə nəsə damdı. Heç rahatlıq tapa bilmədim və yuxularım ərşə çəkildi. Ora-bura getdim, zəng çaldım, heç bir məlumat ala bilmədim.

Noyabrın 13-də onu şəhid kimi Füzuli rayon hospitalında tapdım. Aman, necə də ağır səhnə idi. Yarı hissəsi yox idi qardaşımın. Minomyot aparmışdı. Eh, nə deyim, necə danışım heç bilmirəm. Onu xalq təntənəsi ilə gətirib el qəbiristanlığında – atamızın yanında dəfn etdik. Daha danışa bilmirəm, siz Allah, üzürlü sayın".

Bunları söyləyib qəhərlənir Mehman müəllim. Başını əlləri arasına alıb bərk-bərk sıxır və düşmənə nifrinlər yağdırır. Onu təsəlli edir və igid oğlumuzun keçdiyi ağlasığmaz qəhrəmanlıq yolunu araşdırmağa davam edirəm.

Bir insan, bir eloğlu kimi çox həssas insan olub mayor həmyerlimiz. O, həm də hədsiz dərəcədə yanımcıl bir ailə başçısı olub. Özündən sonra iki övladı qalıb. Böyük övladı Bəhmən 9-cu, qız övladı Emilya isə 8-ci sinifdə oxuyur. Onlar haqlı olaraq öz cəsur, döyüşkən ataları nın şücaətləri ilə fəxr edirlər.

Emin Süleymanov şəhadətindən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü",

"Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

İndi qəhrəman həmyerlimizin doğma Xubyarlı qəbrisitanlığındakı məzarı el-obanın ən müqəddəs ziyarətgahına çevrilmişdir. Məqamı ucadır şəhidimizin!

İsrafil Sarıxanlı
15.02.2022

"Qələbə şəhidləri" kitabından:

Mayor Süleymanov Emin Bəhmən oğlu 21 iyul 1977-ci ildə İmişli şəhərində polis ailəsində anadan olmuşdur. 1983-cü ildə İmişli şəhər Namiq Şirinov adına 5 saylı məktəbin (rus bölməsi üzrə) 1-ci sinfinə daxil olmuşdur. 1991-ci ildə həmin məktəbin 8-ci sinfini bitirib öz arzusu ilə Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olur. Həmin dövrlərdə xalqımız müharibə şəraitində idi. Buna baxmayaraq, bütün çətinliklərə dözərək təhsilini davam etdirir. Hərbi liseyi bitirdikdən sonra indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verdiyi imtahanlarda uğurlu nəticə toplayaraq Yerüstü Artilleriyanın Taktiki Komandanlığı ixtisası üzrə təhsilini davam etdirir. Hərbi peşənin sirlərinə dərindən yiyələnir. Təhsilini müvəffəqiyyətlə bitirdikdən sonra leytenant olaraq xidmətə 1999-cu ildə Gəncədə yerləşən "N" saylı hərbi hissədə başlamışdır. Daha sonra Murovdağ silsiləsindəki "N" saylı hərbi hissədə xidmətini davam

etdirir. Motoatıcı taborda minaatan batareyanın komandiri olub. 2012-2015-ci illərdə Yevlax şəhərindəki "N" saylı hərbi hissədə motoatıcı taborun minaatan batareya komandiri kimi, 2015-2016-cı illərdə isə yenidən Murovdağ silsiləsindəki "N" saylı hərbi hissədə xidmətini davam etdirir. Artıq onda kapitan rütbəsində idi Emin Süleymanov. Azərbaycanımızın ən gərgin, ehtiyac duyulan ərazilərində xidmət edib təcrübə toplamışdır.

2016-cı ildə xalqımızın qəhrəmanlıq səhifəsinə qızıl hərflərlə yazılmış "Aprel döyüşləri"ndə xüsusi məharəti və qeyri-adi vətənpərvərliyi ilə diqqət çəkib. Həmin döyüşdə düşmənə zərbələr endirərək onlardan xeylisini məhv etmişdi.

Həmin döyüşdə tabeliyində olan əsgərləri Cəfərli Nurlanın və Qədirov Bəhlulun komandirləri kapitan Süleymanov Emin haqqında söylədikləri: "Biz Goranboy rayonu Tapqaraqoyunlu kəndi ərazisində mövqe tutmuşduq. Döyüşlərdə bizə xüsusi qayğı və diqqətini əsirgəmirdi. Hərbinin sirlərini, döyüş taktikasını öyrədirdi. Bununla yanaşı, vətənpərvərlik hissini bizə dərindən aşılayırdı. Qorxmazlıq, mərdlik məktəbi idi komandirimiz bizimçün. Onun kimi komandiri tək-tək yetişdirər vətən. Çox savadlı, məsuliyyətli, peşəkar zabit idi. Biz ondan ata qayğısı görürdük. Öz canını bizə – əsgərlərinə sipər edəcək dərəcədə mərd idi.

Döyüş zamanı təcili yardım maşını neytral zonada qalmışdı, hansı ki, maşın yaralı aparırdı. Yaralının vaxtında hospitala çatdırılmasına görə özünü irəli ataraq köməklik göstərmişdi".

2016-cı ildə "Aprel döyüşləri"ndə erməni işğalçılarına qarşı aparılan döyüşlərdə peşəkar hərbiçi olaraq göstərdiyi şücaət və qəhrəmanlığa görə, Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən fəxri fərmanla təltif olunmuşdur.

"Aprel döyüşləri"ndən qalib zabit kimi döndü evinə Emin Süleymanov. Bu döyüşdən sonra ailəsi onun ordu sıralarından tərxis olunması barədə israr etsələr də, buna baxmayaraq, xidmətini Qazax rayonundakı "N" saylı hərbi hissədə davam etdirir. Qeyd edək ki, müəyyən müddət Xüsusi təyinatlı qrupda xidmət keçmişdi. Bundan əlavə olaraq, Emin Süleymanov hərbi xidmətdə olduğu müddət ərzində ayrı-ayrı dövrlərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən "Qüsursuz xidmətə görə" III dərəcəli medalı, "Qüsursuz xidmətə görə" II dərəcəli medalı, "Qüsursuz xidmətə görə" I dərəcəli medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi" (1991-2001-ci illər), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" (1918-2008-ci illər), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" (1918-2013-cü illər), "Azərbaycan Ordusunun 100 illiyi" (1918-2018-ci illər) yubiley medalları ilə təltif olunmuşdur.

2016-cı ildə Gəncədəki "N" saylı hərbi hissədə israrlara baxmayaraq, xidmətini davam etdirir.

2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsində ilk döyüş yolu Kəlbəcər istiqamətində Murovdağ zirvəsindən başladı. Ağır artilleriya komandiri olaraq strateji mövqelərin möhkəmləndirilməsində fəal, əsl peşəkar zabit kimi hünər göstərmiş və düşmən mövqelərini sərrast artilleriya zərbələri ilə məhv etmişdir. Daha sonra Müdafiə Nazirliyi tərəfindən verilmiş müvafiq əmrə uyğun olaraq Füzuli rayonunun işğaldan azad olunması uğrunda aparılan döyüşlərdə iştirak etmiş və növbəti dəfə şücaət, qəhrəmanlıq göstərmişdir.

Növbəti döyüş yolunda isə Xocavənd, Tuğ, Daşaltı, Şuşa, Laçın istiqamətində, sözün əsl mənasında, polad iradəli artilleriya komandiri olaraq hər gün yeni zəfərlərə imza atır.

Anası Süleymanova Tamara xanımın söylədiklərindən: "Emin övladlarımın arasında ən məsuliyyətli, qürurlu, mərd oğul olub. Ona hərbiyə maraq atasından keçib. Hətta kiçik yaşlarından atası ona öz istəyi ilə hərbi papaq, paqon tikdirirdi.

Həddindən artıq səliqəli, təmiz uşaq idi. Emin haqqında saatlarla danışa bilərəm bir ana olaraq. Anaya, ataya, ailəsinə, bacı-qardaşa, ətrafındakılara, yaxınlarına həmişə çox hörmətlə yanaşırdı. "Aprel döyüşləri"ndə çox narahatlıq keçirdiyim üçün onun artıq hərbi -

də xidmət etməyini istəmirdim. Çox deyirdim ki: "Daha bəsdir hərbidə xidmətin".

Yorğun gəlirdi evə. Bu, hər birimizi narahat edirdi. Buna baxmayaraq, sənətindən ayrılmaq istəmirdi. Artıq bu, onun qanına hopmuşdu. Bu döyüşlərdə də, inanırdım ki, sağ-salamat gələcək balam. Arxayın danışırdı mənimlə. Hər dəfə danışanda deyirdi: "Narahat olma, yaxşıyam". Gözlənilmədən şəhid xəbərini eşitdikdə həyatım qaraldı, çünki bitməz-tükənməz arzuları var idi. Əsgərləri mənimlə danışanda deyirdilər ki: "Bizim can borcumuz var komandirimizə". Belə bir oğul olub balam. Tarix tək-tək yetirər Emin kimi zabiti. Vətən uğrunda getdi balam".

Bacısı **Süleymanova Şəhlanın,** kiçik qardaşı **Süleymanov Elçinin** də qardaşları Emin haqqında söylədikləri xatirələrindən demək olar ki, atalarının vəfatından sonra mayor Emin Süleymanov onlar üçün ata əvəzi olub. Ailələrinin ən ağır itkisi olduğunu bildirdilər: "Problemlərimizlə yaxından maraqlanırdı. Çox zarafatcıl, səmimi qardaş olub. Bu dünyadan gedişi də qeyri-adi oldu. Şəhidlik zirvəsinə ucaldı".

Həyat yoldaşı Süleymanova Məhsəti xanımın dediklərindən: "Eminin sağ-salamat dönməsinə çox inanırdıq. Çünki peşəkar zabit, savadlı artilleriyaçı idi. Çox çətin, ac-susuz döyüş yolu keçməyinə baxmayaraq, bizimlə arxayın, rahat danışırdı. Xidmətində məsuliy-

yətli olduğu kimi, ailəyə qarşı da çox həssas, diqqətli idi. Həddindən artıq planlı zabit idi. Vaxtı, demək olar ki, az olurdu. Uşaqların təhsilinə az vaxt ayıra bilirdi, amma həmişə diqqətində saxlayırdı. Məsləhətlər verirdi. Bədii ədəbiyyat oxumaqlarını tez-tez tövsiyə edirdi. Deyirdi: "Vətənə layiqli olun". Tez-tez dərs - ləri barədə soruşurdu, maraqlanırdı. Hətta döyüşdə olan zaman da soruşurdu. Deyirdim: "Sən sağ-salamat gəl, hər şey həllini tapacaq. Bircə sən özündən, canından muğayat ol".

Sözün əsl mənasında, ailəcanlı idi. Dəyərli ailə başçısı olub Emin. Əsl zabit xarakteri var idi. Çox danışmazdı. "Aprel döyüşləri"ndən sonra israr etdim ki, hərbidən getsin. Amma razılaşmadı: "Qismətimdə nə varsa, o da olacaq" – deyirdi. 44 günlük Vətən müharibəsində də narahatlığımı bildirəndə dedi: "Bu, mənim işimdi". Cavabında hətta onu da dedim ki: "Mərminin, güllənin qabağında nə qismət ola bilər?! Birbaşa ölümdür!" Çox sözlər dedim, amma razılaşmadı mənimlə ki, heç bir şey mümkün deyil. Zabit yoldaşı ilə danışanda da (ehtiyatda olan) dedi: "Gəl, gedirik Qarabağı almağa!"

44 günlük Vətən müharibəsində ac-susuz olmağına baxmayaraq, torpaq, vətən uğrunda peşəsinin məsuliyyətli zabiti olaraq son nəfə - sinə kimi vuruşdu. Canını fəda edərək şəhid - lik zirvəsinə ucalmaqla yanaşı, ən yeni tarix yazdı Emin Süleymanov.

Çox heyf ki, bizi tez tərk etdi. Amma Eminin Vətən yolunda şəhidlik zirvəsinə ucalması əbədi olaraq ailəsinə, övladlarına, doğmalarına qürurlu, məsuliyyətli yaşamağı bəxş etdi.

İki övladı vətənə əmanət qaldı: Süleymanzadə Bəhmən, Süleymanzadə Emilya. Onların gələcəyi üçün, atalarına layiq övlad olmaları üçün çalışacağam. Emin tək ailəsinin yox, bütün Azərbaycanın qibləgahıdır!"

Evdən təlimə getmək adı ilə çıxdı

Mayor Emin Bəhmən oğlu Süleymanov 1977-ci il 21 iyulda İmişli rayonunda anadan olmuşdu. Rayondakı Namiq Şirinov adına 5 saylı məktəbin 9-cu sinfində oxuyarkən öz sənədlərini Cəmşid Naxçıvanski adına hərbi liseyə verir. Elə kiçik yaşlarından hərbiyə maraq göstərirdi. Atasına hərbi paqon, papaq tikdirməyi israr edirdi.

1995-ci ildə hərbi liseyi bitirdikdən sonra Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olur. 1999-cu ildə leytenant rütbəsi alaraq Gəncədəki "N" saylı hərbi hissədə xidmətə başladı. Çox savadlı zabit olduğuna görə, leytenant Emin Süleymanov "N" saylı hərbi hissənin reaktiv artilleriya divizionun reaktiv artilleriya batareyasının idarəetmə taqım komandiri vəzifəsinə təyin edilir. Müxtəlif vəzifələrdə xidmət edərək mayor rütbəsinə qədər yüksəlmişdi. Ön cəbhədə də Azərbaycanımızın keşiyində durmuşdu. Hətta öz vəsaitindən

belə əsgərləri üçün uyğun şərait qurmağa çalışıb ki, əsgərləri əziyyət çəkməsinlər.

Bir zabit kimi 10 ilə yaxın çətin dağ şəraiti olan Murovdağ silsiləsindəki "N" saylı hərbi hissədə xidmət etmişdi.

2016-cı ilin aprel ayı idi. Qəfil gələn zəng onu narahat etdi. Anası Tamara xanıma, həmçinin, ailəsinə bildirmədən qatılmışdı döyüşə. Murovdağdakı "N" saylı hərbi hissədən gələrək Goranboy rayonu Tapqaraqoyunlu kəndində döyüşlərdə göstərdiyi şücaətlərə görə, Azərbaycan Respublikasının Müdafiə nazirinin əmrinə əsasən fəxri fərmanla təltif olunmuşdu.

Həyat yoldaşı Məhsəti xanım belə xatırlayır o günləri: "Çox həyəcanlı və dəhşətli günlər idi mənim üçün. Biz onun təlimə getdiyini zənn etmişdik. Top səsləri eşidilirdi. Sonra qonşudan eşidəndə ki, Emin də döyüşdədir özümə yer tapa bilmirdim. Nələr baş verdiyini belə düşünmürdüm. Yalnız onun zəngini gözləyirdim ki, telefona cavab verəm. Allah dualarımızı eşitdi, sağ-salamat qayıtdı evə. Qəfil qapını açıb içəri girəndə sevincimizin həddi-hüdudu yox idi. Sanki günəş doğdu evə. Müəyyən ərazilərimiz alınmışdı, sevinirdik. Eminin sağ-salamat, qələbə müjdəsi ilə qayıtması kəlmələrə sığmayacaq qədər qürur və fəxr hissi idi. Şəhidlərimizin olması isə qələbəyə rəğmən çox sarsıtdı bizi... Çox sevirdi

peşəsini. Sanki müharibənin başlayacağı günü gözləyirdi".

Anası Tamara xanımın dediklərindən belə məlum oldu ki, Süleymanovlar ailəsində ata – polis mayoru Süleymanov Bəhmən, böyük qardaş – Süleymanov Mehman da I Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşmüşlər. Müstəsna xidmətləri olan mayor Emin Süleymanov bir çox medal - larla, o cümlədən, "Qüsursuz xidmətə görə" 1-ci, 2-ci, 3-cü dərəcəli medalları ilə təltif olunmuşdur. Arzusu böyük idi. Peşəsinin vurğunu idi, 43 illik ömrünün 25 ilə yaxınını yorulmadan can qoymuşdur Azərbaycan ordusuna...

2020-ci ilin yay ayları idi. Bir tərəfdən geniş yayılmış xəstəlik ucbatından karantin şəraiti, bir tərəfdən də müharibə əks-səsası bürümüşdü ölkəmizi. Artıq generalımız Polad Hə - şimov, polkovnik İlqar Mirzəyev və onlarla birlikdə şəhid olan hərbiçilərimizin bu sarsıntısı ölkəni vəcdə gətirdi. Torpaqlar hələ də düşmən tapdağı altında idi. Mayor Emin Sü - leymanov da Azərbaycan ordusunun bir zabiti kimi kədər hissi keçirmişdi. Polad Həşimovu yaxından tanıyırdı. Həqiqətən, mərd, qorxmaz zabit olduğunu bildirmişdi ailəsinə. Polkovnik İlqar Mirzəyev kursant dövründə Emin Süleymanovun taqım komandiri olmuşdu. Sentya - brın 27-si idi. Müharibənin ilk günləri barədə

televiziya xəbərlərindən məlumat verilsə də, ailəsi buna inanmaq belə istəmirdi.

Emin təlimə gedirmiş kimi evdən çıxır. 2016-cı ilin yayından Gəncədə yerləşən "N" saylı hərbi hissədə artilleriya batareyasının komandiri vəzifəsində xidmət edirdi mayor Emin Süleymanov. Müharibədən xəbərsiz ailə səksəkə içində hər gün Eminin gəlişini gözləyirdi.

4 oktyabrda birdən gurultu səsi Gəncəni bürüyür. Bu səs çox narahat etmişdi ailəsini. 5 oktyabrda nankor düşmən şəhəri yenidən raket atəşinə məruz qoyur. Övladları üçün narahat olan Emin ailəsini Bakıya göndərir. Həmin gündən daha ağır, həyəcanlı günlər başlayır. Torpaqlar alındıqca xalq bayram edirdi. Eminə çox güvənən ailəsinin heç xəyalından da keçmirdi ki, bir gün onun da şəhid xəbəri gələ bilər. Çünki çox peşəkar artilleriyaçı idi. Buna baxmayaraq, yaxınlarına bildirmirdi ki, ən qızğın yerlərdə döyüşür.

İlk olaraq, döyüş yolu Kəlbəcərdən keçir. Füzuli, Cəbrayıl, Qubadlı, Şuşa-Daşaltı, Laçın dəhlizi istiqamətinə qədər irəliləmiş, könüllü əsgərləri ilə birlikdə igidlik göstərərək vuruşmuşdu. Ailəsi çox narahat idi. Çünki "Aprel döyüşləri"ndə keçirdikləri böyük sarsıntı heç yaddan çıxmamışdı.

14 noyabr qızı Emilyanın ad günü idi. Hər il olduğu kimi, atasının sürpriz hədiyyəsi ilə

həmin günü səbirsizliklə gözləyirdi. Telefon danışığında da deyib ki: "Ad günümə kimi gəl, ata". Emin əminliklə söz verə bilmirdi gələcə - yinə, çünki ən ağır məsuliyyət var idi çiyin - lərində: Vətəni yağı düşməndən azad etmək! Buna baxmayaraq, hər gün zəngini və qəfil qapını açıb gələcəyini gözləyirdilər "Aprel dö - yüşləri"ndə olduğu kimi...

8 noyabrı Bakı bayram edirdi. Şuşa düş - məndən azad edilmişdi. Ailəsi ondan neçə gündür xəbər tuta bilmədiyi üçün ürəkdən sevinə bilmirdi. Bir gün zəngi gəlmədiyinə gö - rə, həddindən artıq narahat idilər. Nəinki, günü, hətta saatı, dəqiqəni, saniyələri belə gözləyirdilər ki, bir zəng gəlsin Emindən. Emini sağ-salamat, qələbə müjdəsi ilə göz - ləyirdilər.

Cəsur mayor 9 noyabrda Daşaltı, Laçın dö - yüşləri zamanı şəhidlik zirvəsinə ucalır. Onun bir daha sağ-salamat geri dönməyəcək hissi bürümüşdü Məhsəti xanımı artıq. 13 noyabrda – şəhid xəbərini aldıqları gün haqqında "yer, göy çökdü, sanki..." – deyir anası Tamara xa - nım. Sözünə davam edir: "Emin ailəmizin fəx - ri idi, anaya, ailəsinə, bacı, qardaşına dayaq idi. Övladlarımdan fərqlənirdi. Çox səliqəli, qayğıkeş, diqqətli idi. Onun kimi oğulu tarix tək-tək yetişdirər. Elə bil, hərbi üçün doğul - muşdu. Çox arzuları yarımçıq qaldı balamın. Emin bizim sağalmaz yaramızdı. Düzdür, şə - hidlik uca məqamdır, qürurumuzdur, mən

Eminlə fəxr etmişəm, bu gün də fəxr edirəm balamla. Amma onun gülüşünü, danışığını, üzünü görməmək çox ağırdı bir anaya. Övlad - ları Bəhmən və Emilya bu gün də atalarının yolunu gözləyirlər".

Qəhrəmanlıq salnaməsi olan Emin Süley - manov 13 noyabr 2020-ci ildə ata yurdu olan İmişli rayonunun Xubyarlı kəndində torpağa tapşırılıb. Məqamın ucadır, Vətən oğlu!

Bünyamin Nərimanoğlu
"Bütöv Azərbaycan" qəzeti. 18.02.2022
səh. 4

Atam mənə ən yaxın dost, sirdaş, qardaş və ata idi...

Şəhid mayor Emin Süleymanovun oğlu Bəhmən Süleymanzadə ilə müsahibə

Hər uşaq üçün atası onun böyüyü, güvənc, məsləhət yeri, yol göstərən, qaranlıqlardan işığa çıxaran mayakı, başının üstündə daim cövl edib onu qoruyan qaraçuxasıdır. Bəzən elə uşaqlar olur, onların taleləri, qismətləri elə gətirir ki, atalarını görə bilmirlər və yaxud da ataları onlara atalıq qayğısı göstərmir, pislik edir, onları işlədir, onlara əziyyət verməkdən, elə bil ki, zövq alır. Bu həyatda hər şey olur. Tale, qismət bir insanda bir ayrı cür, digərində isə tamam başqa cür olur. Dünyaya gələn hər uşağın atası olur. Amma hər uşağın atası ona səmimi dost, qayğıkeş ata, el-obası üçün vətənpərvər, igid, qəhrəman, arzusu, amalı üçün şəhid olmur. Adətən, hər bir uşağın atası ailənin başçısı kimi ailəsini qoruyur. Amma elə uşaqlar da var ki, onların ataları təkcə ailəsini de-

yil, həm də Vətənini qoruyur. İkincilərin işləri çox məsuliyyətli, ağır olur. Bələləri lazım gələndə ailələrindən Vətən üçün əl çəkə biləcək qədər qəhrəman, cəsur, təmkinli, dözümlü olurlar. Biz də ikincilərdən olan ataları işıqlandırmağa çalışırıq ki, Ana Vətənimiz Azərbaycanın böyütdüyü və böyüdəcəyi saysız-hesabsız igidlər belə atalardan örnək götürsünlər, belə ataların izi ilə getsinlər ki, belə ataların cığırları, izləri əbədiyaşar olsun.

Budəfəki müsahibim "Aprel döyüşləri"nin və Vətən müharibəsinin qəhrəman zabitlərindən biri, 25 ilə yaxın yorulmaq nədir, çətinlik nədir bilmədən sevə-sevə Vətəninə xidmət etmiş, 44 günlük müharibədə qəhrəmanlıq göstərərək müharibənin 44-cü günü Laçın uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Emin Bəhmən oğlu Süleymanovun oğlu, atası kimi igid qardaşım Bəhmən Süleymanzadədir. Gəlin, birlikdə şəhidimiz haqqında onun nəslinin, soyunun mübariz davamçısı olan yadigarının dilindən eşidək.

– Salam. Xahiş edirəm, əvvəlcə özünüzü təqdim edəsiniz.

– Salam. Mən, Süleymanzadə Bəhmən Emin oğlu 6 mart 2007-ci ildə İmişlidə anadan olmuşam. 2013-cü ildə Balakən şəhər Nizami adına 1 saylı məktəbin 1-ci sinifinə daxil olmuşam. Sonra isə atamın xidmət yeri dəyişdirildiyindən müxtəlif illərdə Mingəçevir, Göygöl, Gəncə şəhərində təhsilimi davam etdirmişəm.

Hal-hazırda Bakı şəhər 189-190 saylı məktəbin 9-cu sinfində təhsil alıram.

– Atanız, şəhidimiz Emin Süleymanovla ataoğul kimi aranızda münasibətiniz necə idi? Sizin nəzərinizdə o, ümumiyyətlə, necə bir xarakterə malik insan, eyni zamanda, bir ata idi?

– Mən bir oğul kimi deyil, başqalarının gözü ilə atamı xarakterizə etmək istərdim. Atam həddən çox qayğıkeş, mehriban, səmimi, sadə, qadına, uşağa, qocaya, özündən böyüyə diqqətlə yanaşan, yalan sevməyən, həmişə haqqın-ədalətin tərəfində olan, Vətənini çox sevən bir insan idi. O, lap mənim körpəliyimdən, yadımda qalandan məni özünə dost, həmdəm kimi qəbul edirdi. Ancaq tərbiyə, təlim, təhsil məsələlərində ata-oğul münasibətində idik. Atamın bizimlə əylənmək, gəzintiyə çıxmaq, əlavə vaxt keçirmək üçün çox az zamanı olurdu. Amma onu deyə bilərəm ki, peşəsinin ağır, məsuliyyətli olmasına baxmayaraq, diqqəti bizdə, yəni, bacım Emilya ilə məndə olardı, həmişə dərslərimizə necə hazırlaşdığımızı soruşub maraqlanardı. Deyərdi ki: "Dərslərinizi yaxşı oxuyun və sevdiyiniz peşəyə yiyələnin". Çox vaxt bizə bədii ədəbiyyat oxumağı da məsləhət görərdi. Özünü bizə nümunə çəkib məktəbin nəzdində olan kitabxanaya üzv olduğunu və kitablar seçib oxuduğunu, çoxlu mütaliə etdiyini deyərdi. Bizə deyərdi ki: "Siz də bundan yararlanın". Adətən, iş yerindən, yəni, hərbi hissədən çox yorğun gəlməsinə baxmayaraq,

imkanı çatdığı qədər bizə vaxt ayırar, əsasən də, hara getsəydi, ən çox da məni özüylə aparardı. Cüdo idman növü ilə məşğul olmağım üçün atam məni məşqçi yanına qoymuşdu. Deyərdi ki: "İdman sağlamlıqdır, biz də Vətənə sağlam orqanizmlə daha çox xidmət göstərə bilərik". Hərdən vaxt edib məni cüdo yarışlarına aparardı. Son yarışmada 1-ci yer tutduğuma görə onun sevincinin həddi-hüdudu yox idi. Mənə bir neçə idman hərəkətləri etdirirdi ki, həmişə özümü müdafiə edə bilim. Onun 43 yaşı olmasına baxmayaraq, idmana böyük marağı var idi. Məni öz peşəsi kimi paqonlu bir peşədə görmək istəyirdi. Mən də onun arzusunu yerinə yetirmək üçün 1-ci ixtisas qrupu üzrə hazırlaşıram. Qismət olarsa, arzum Aviasiya Akademiyasına qəbul olmaqdır. Kompüter mühəndisi peşəsinə də yiyələnmək istəyirəm. Əslində, hərbi pilot olmaq istərdim, amma bunu anam istəmir. Onu tam mənada başa düşürəm. Çünki atamın bu peşədə şəhidlik zirvəsinə ucalması hamımız üçün nə qədər qürurlu oldusa da, anamı sarsıtdı.

– Atanız sizinlə, bacınızla, ümumiyyətlə, uşaqlarla necə davranırdı, onlara necə münasibət bəsləyirdi?

– Qeyd etdiyim kimi, atam mənə, bacıma, ümumiyyətlə, hər bir uşağa qarşı çox həssas, diqqətli bir insan idi. Mənim adi bir xırda nöqsanım olardısa, onda dərhal mənə iradını bildirər, nöqsanı aradan qaldırmağım üçün düzgün

istiqamət göstərərdi, gələcəkdə bu nöqsanı təkrarlamamaq üçün isə məsləhət verərdi. Bacıma da diqqətlə yanaşar, aramızda ayrı-seçkiliyə yol verməzdi. Eyni zamanda, o, çox səliqəli, planlı, məsuliyyətli insan idi. Bizdən də belə olmağı tələb edirdi. Murovdağ silsiləsindəki "N" saylı hərbi hissədə xidmət etdiyi zaman vaxtı olanda bizimlə qartopu oynayardı. Məlum olduğu kimi, qış aylarında Murovdağ silsiləsindən qar əskik olmazdı. Atam dağları çox sevirdi. İsti havadan çox da xoşu gəlməzdi. Yayda məzuniyyət vaxtlarında atam bizi Göygölə, Maralgölə gəzməyə aparardı. Demək olar ki, atam heç bir vaxt diqqətə, qayğıya, məsləhətə, ümumiyyətlə, hər hansı köməyə ehtiyacı olan uşaqlara, yeniyetmələrə imkanı dairəsində lazım olan köməyini əsirgəməzdi. Mən onu belə görmüşdüm və belə də xatırlayıram.

– Atanızın danışdıqlarından onun öz peşəsinə, iş yoldaşlarına, tabeliyindəkilərə münasibəti ilə əlaqədar xatirələrinizi bölüşməyinizi xahiş edirəm.

– Atam peşəsini çox sevər, iş yoldaşları ilə mehriban, səmimi münasibətdə olardı. O, tabeliyində olan əsgərlərinə münasibəti haqqında danışardı. Deyərdi ki: "Mən əsgərlərimə qarşı nə qədər tələbkarlıq edirəmsə, bir o qədər də onlara valideynlik qayğısı, münasibəti ilə yanaşıram". Özünün kursantlıq dövrlərindən danışarkən isə deyərdi: "Bir problemim yarandığı zaman heç vaxt atamı, anamı narahat etməmişəm. Hətta Cəmşid Naxçıvanski adına liseydə oxuyanda da böyük qardaşım, anam, atam yanıma gələndə onların əziyyət çəkməsinə qıymazdım, narahat olardım. İstirahət günlərində rəhbərlikdən icazə alıb mən özüm rayona gedərdim onları görməyə". Atamın dediklərindən belə xatirələr çoxdur. Onu da deyim ki, atam çox söz danışan da deyildi. Atam peşə sirri ilə əlaqədar evdə, başqa yerlərdə, ümumiyyətlə, bir kəlmə də danışmazdı.

– Atanız, şəhid Emin Süleymanovun 2016-cı ilin aprel ayında baş vermiş və tarixə "Aprel döyüşləri" kimi daxil olmuş döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar barədə nə vaxt, kimdən xəbər tutdunuz və bir oğul kimi hansı hissləri keçirdiniz?

– Onu deyə bilərəm ki, atam nə "Aprel döyüşləri"ndə, nə də II Qarabağ, yəni, Vətən müharibəsində bizə heç bildirmədi ki, müharibəyə gedir. Bizə müharibə başladığını və ya hər hansı bir nigaranlığın olduğunu hiss etdirmədi. İndi anlayıram ki, atam özünə çox güvənli, cəsur, peşəkar zabit olub. Özü əsgərlərini necə qoruduğundan danışırdı. Həmin ərəfələrdə biz hətta bilmirdik ki, atam döyüşdədir. Onun döyüşdə olması barədə anam qonşularımızdan xəbər tutdu. Nənəm də bizimlə qalırdı, belə hallarda anam bu barədə nə nənəmə, nə də bizə bildirməzdi. "Aprel döyüşləri" zamanı biz yenə Murovda idik. Atam orada yerləşən "N" saylı hərbi hissədən "Aprel döyüşləri"nə qatıl-

mışdı. Olduğumuz yerə Tərtər, Goranboy isti - qamətində atılan topların səsi asanlıqla gəlirdi. Vəziyyətdən anam çox narahat idi. Atəş səsləri Kəlbəcər tərəfdən gələndə isə anam tez getdi qonşuya ki: "Bilmirsiniz, bu səs nədir?" Çünki atam bizə Kəlbəcər tərəfə döyüşə deyil, təlimə getdiyini demişdi. Amma həmin qonşu digər qonşunun da oğlunun döyüşdə olmasını görübmüş. Bildirmişdilər ki, Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində döyüşlər gedir. Onsuz da, anam və nənəm televiziyadan bir an olsun ayrılmırdı. Döyüşə get - diyi halda anam və nənəm narahat olmasın deyə atam onlara təlimə gedirmiş kimi deyib - miş. Buna baxmayaraq, artıq biz hamımız onun döyüşdə olmasını bildiyimiz üçün tezliklə dö - yüşün qələbə ilə bitməsini, atamın sağ-salamat qayıtmasını böyük narahatlıqla gözləyirdik. O, çox solğun, yorğun halda, toz-torpaq içərisin - də qəfil evə daxil olanda sevincimizin həddi-hüdudu yox idi. Hələ onda lap uşaq olmağıma baxmayaraq, hər dəfə atamın evə gəlişində ol - duğu kimi mən daha çox sevinirdim. O vaxtlar kiçik olduğumdan müharibəni indiki kimi dərk edə bilmirdim. Vətən müharibəsindən sonra döyüş yoldaşlarının deməsindən atamın necə məsuliyyətli, cəsur, tabeliyində olan əsgərləri - nə atalıq qayğısı ilə yanaşan bir komandir ol - duğunu bir daha bilmiş oldum. Atam "Aprel döyüşləri"ndə göstərdiyi şücaətlərinə görə, Azərbaycan Respublikası Müdafiə nazirinin

əmri ilə fəxri fərmanla təltif olunmuşdu. Atamın hər dəfə evə gəlişi bizim üçün toy-bayram idi. Atam mənə ən yaxın dost, sirdaş, qardaş və ata idi. Mən Azərbaycan Ordusuna şərəfi, qeyrəti, namusu, vicdanı, məsuliyyəti ilə xidmət edən zabitin oğlu olduğum üçün atamla qürur duyur, onunla fəxr edirəm. Onun şəhadətə yüksəldiyini bildiyimiz halda bu gün hələ də atamın yolunu gözləyirik. O, sağlığında hər il bizə ad günləri keçirərdi, özü də aldığı hədiyyələri sürpriz etməyi çox xoşlayardı.

– Onunla sonuncu dəfə aranızda olan görüşünüzü xatırlayırsınızmı? Əgər yaddaşınızdadırsa, sonuncu görüşünüzlə əlaqədar xatirələrinizi bizimlə bölüşməyiniz yerinə düşərdi. Atanızın Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqdan, şəhid olmazdan əvvəl sizinlə hər hansı formada isə əlaqə saxlayıb-saxlamadığı barədə nələri deyə bilərsiniz?

– Hamı kimi bizim üçün də 2020-ci il çox narahat il oldu. Başladığı gündən pandemiya, dərslərin bağlanıb onlayn sistemə keçməsi, iyul ayında general Polad Həşimov və polkov - nik İlqar Mirzəyevlə birlikdə hərbiçilərimizin şəhid olması atama çox təsir etmişdi. Atamda yağı düşmənə hədsiz nifrət var idi. Həmin ilin yay aylarında atam çox pis xəstələndi. Sağal - masına baxmayaraq, sanki yorğunluq var idi canında. Baxmayaraq ki, sonda xalqımıza qə - ləbə sevinci yaşatdı, bununla belə, 2020-ci il çox ağır il oldu. Anam hətta atama çox israrla

söyləyirdi ki, məzuniyyət götürsün, bir az istirahət etsin, müalicə olunsun. Amma bunun mümkün olmadığını bizə, ola bilsin ki, demirdi. Atamın daxilində müharibə həyəcanı var idi. Atam həmişəki kimi, bu haqda elə də danışmırdı. Hərdən tərxis olmuş zabit yoldaşına zarafatyana müharibənin başlayacağını da deyirdi. Amma biz bunu ciddi qəbul etmirdik. Çünki narahat olmayaq deyə bu barədə bizə ciddi olaraq heç nə demirdi. Axırıncı dəfə atam tələm-tələsik gəldi evə ki: "Mən getməliyəm, məni gözləyirlər". Anam yenicə bişirdiyi yeməkdən süfrə hazırlamışdı. Buna baxmayaraq, atam hazır yeməkdən belə yemədən evdən çıxdı: "Uşaqlar məni gözləyir, tələsirəm!" – deyə. Biz buna vərdiş eləmişdik, çünki çox vaxt belə olurdu. Mən də, həmişəki kimi, atamın qayıdacağı vaxtı gözləyirdim. Gəncə şəhərinə mənfur düşmənlərimiz tərəfindən raketlər atılan zaman atam çox narahat oldu, çünki onda biz Gəncədə yaşayırdıq. Özü yanımızda ola bilməyəcəyindən bizi Bakıya göndərdi. Hər gün, demək olar ki, telefonla danışırdıq. Hər dəfə də yenə həmişəki kimi, dərslərimizdən və özümüzdən muğayat olmağı deyirdi. Ən ağır döyüş bölgələrində vuruşduğu, hər an təhlükədə olduğu halda yenə də bizim qayğımıza qalırdı. Anam hər danışanda ona deyirdi ki: "Sən özündən muğayat ol. Özünü qoru, gözlə. Bizi düşün; sənsiz bizim halımızın necə olacağını fikirləş". 7 noyabrda atamla son danışığımız oldu. O, mənə yolda olduğunu, sonra zəng edəcəyini dedi. Biz sonradan bildik ki, həmin tarixdə, elə həmin vaxtda erməni mənfurlarından, qəsbkarlarından torpaqlarımızı azad etmək üçün əlbəyaxa döyüşdə imiş. Axşamüstü idi, anam təkrar zəng edəndə artıq atama zəng çatmadı. Anam narahatlıqdan özünə yer tapa bilmirdi. Ona görə də, atamın müharibədə iştirak edən digər zabit yoldaşı ilə əlaqə saxladı. O da dedi ki, onlar öndə olduqları üçün əlaqə zəifdir. Həmin gündən də atam üçün daha çox narahat olmağa başladıq.

– Atanızın necə şəhid olması, bundan necə xəbər tutmağınızı, həmin anda hansı hisslər keçirdiyinizi, onu nə vaxt dəfn etdiyinizi necə xatırlayırsınız?

– Atamın şəhid olması xəbərini eşidəndə bir oğul kimi buna inanmağım gəlmirdi, özümü böyük şok və yuxuda hiss edirdim. Çünki bu günün mənim üçün çox mümkünsüz dərəcədə ağır olduğunu hesab edirdim. Atamla çox arzularımız, söhbətlərimiz olardı. Hələ tezliklə böyüyüb atama layiqli oğul olmağımı səbirsizliklə gözləyirdim. Maşına çox böyük marağım var. Bu marağı da mənə məhz atam aşılamışdı. Anamın dediyinə görə, heç 1 yaşım olmamış məni özüylə götürüb maşını işə salana qədər qucağında, sükan arxasında oturdarmış, sonra məni evə qoyub hərbi hissəyə gedərmiş. Bundan, sanki xüsusi bir zövq alarmış. Bu hal mənim 6-7 yaşıma kimi atamda vərdiş halı almış

imiş. Atam mənim qürur mənbəyim idi. Atam mənim arxa-dayağım, ürəyimin taqəti idi. Atam mənim həyatımda ən dəyərli varlığım idi!

– Bir şəhid övladı kimi həmyaşıd həmvətənlərimizə arzu, istək və tövsiyələrinizi bildirməyiniz yaxşı olardı.

– Heç bir uşağa arzu etmərəm ki, şəhid övladı olsun. Çünki hələ mənim bu yaşımda, atamın özünün də cavan yaşında onu torpağa tapşırmaq qədər mənim üçün ağır heç nə ola bilməz. Bu, mənim qismətimdə var imiş. Digər şəhid övladlarının da, həmçinin. Buna baxmayaraq, adını Azərbaycanın şanlı tarixinə yazdığı üçün atamla, şəhidlərimizlə qürur duyuram. Bu gün bizim şəhid övladları ilə də sıx münasibətimiz var, çünki atalarımız Vətən yolunda canından keçdi! Atam hər dəfə evə gələndə və ya bir yerə gedəndə, onsuz da, onunla qürur duyurdum. Bu, yerə-göyə sığmayacaq qədər sevinc, qürur idi. İndiki bu qürurda isə qürurla bərabər kədər də, hüzn də var. Həmyaşıdlarıma, şəhid övladlarına da şəhid atalarımız kimi Vətəni sevməyi, Vətən uğrunda canlarını sevə-sevə qurban vermək ruhunda böyüməyi, ləyaqətli, dəyanətli, mərd, cəsur, vicdanlı, ədalətli olmağı arzu edirəm. Onda şəhid atalarımızın ruhu şad olar. Son olaraq, bildirmək istəyirəm ki, Ali Baş Komandanın müvafiq fərmanları ilə Vətən müharibəsində göstərdiyi igidliyə, şücaətlərə, qəhrəmanlığa görə, atam "Cəsur döyüşçü", "İgidliyə görə",

"Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Çox arzulayıram ki, İmişli şəhər 8 saylı tam orta məktəbə atamın adı verilsin. İnşallah, arzum yerinə yetər və atamın adı əbədiləşər. Məncə, bu, şəhidlərimizin ruhuna böyük ehtiram, şəhid ailələrinə isə böyük təskinlik, təsəlli olardı.

– Çox sağ olun. Qiymətli vaxtınızı ayırıb müsahibə verdiyiniz üçün sizə təşəkkür edirəm. Allah atanız şəhid mayor Emin Süleymanovla birlikdə Vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin! Bu qürurlu, fəxrli və ağır itkini sona qədər çiynimizdə saxlayacaq və əlimizdən gələni edib şəhidlərimizi unutmayacağıq, unutdurmayacağıq! Bu, bizim Allah dərgahında, Vətən və şəhidlərimizin ruhu qarşısında ən müqəddəs borcumuzdur!

Şəhidimizin əziz xatirəsinə həsr etdiyim "Şuşa qalasının topçusu Emin" adlı şeirimi oxucularımın nəzərinə çatdırıram.

Şuşa qalasının topçusu Emin!

Şəhid mayor Emin Bəhmən oğlu Süleymanovun əziz xatirəsinə həsr edirəm
(21 iyul 1977-ci il İmişli rayonu –
9 noyabr 2020-ci il Laçın dəhlizi)

43 il yaşadın təmiz adınla,
Doğru addımladın cənnət yolunda,
Sonda şəhid oldun Laçın uğrunda,
Ana yurdun qürurunu çevrildin,
Şuşa qalasının topçusu Emin.

Yaxınlar gözündə pirdin, ocaqdın,
Onlar üçün yanırdın, yanacaqdın,
"Şəhid oğlu" adını bağışladın,
Səninlə fəxr edir igid Bəhmənin,
Şuşa qalasının topçusu Emin.
Övladın bilirdin əsgərlərini,

Ordumuzun aslanını, nərini,
Hərbə həsr etmişdin sən illərini,
Şıxlinskinin yolun davam etdirdin,
Şuşa qalasının topçusu Emin.

Sən Vətən yolunda fədai idin,
Gəncliyini bu yolda fəda etdin,
Dastan oldu Laçında şəhidliyin,
Müqəddəs amal uğrunda can verdin,
Şuşa qalasının topçusu Emin.

Şuşanı azad elədiyin anlar,
Səni görüb fəxr, qürur duydular,
Qacara meydan oxuyan topçular.
Qəhrəmanı oldun yüzilliklərin,
Şuşa qalasının topçusu Emin.

Çin oldu Qarabağla keçən yuxun,
Döyüş başlayanda quş kimi uçdun,
Murovdağdan başladı döyüş yolun,
44 gündə Laçına qədər getdin,
Şuşa qalasının topçusu Emin.

Yağı düşmən girsə donundan-dona,
Əbədi, tarixi dərs keçdin ona,
Zəfər tarixini əvvəldən sona,
Sən yazdın, oxudun, həm vərəqlədin,
Şuşa qalasının topçusu Emin.

Murovdağa biz qalxa biliriksə,
Qarabağa biz səfər ediriksə,

Şuşa qalasını seyr ediriksə,
Sənin sayəndədir, igidim mənim!
Vətənimin fəxri, Eminim mənim!

Ey şəhidim! Rahat uyu, rahat yat,
Cənnətində ruhun olsun daim şad,
Daha Qarabağda olmayacaq yad,
Şair qələmimlə edirəm əmin,
Ey qürur yerimiz, qəhrəman Emin.

Sevindik Nəsiboğlu
"Kredo" qəzeti. 16 mart 2022 /
23-30 mart 2022. Səh. 12

Aprel döyüşləri iştirakçısı, Vətən müharibəsi qəhrəmanı

Qəhrəmanlıq qandan gəlir. Düşmən pəncəsində al qana qərq olan vətənin vətəndaşları vətənə məlhəm olmağa çalışar. Süleymanovlar nəslinin qeyrətli oğlu, xalqın keşiyində duran polis Bəhmən Süleymanov I Qarabağ müharibəsində Zəngilan rayonunun Mincivan qəsəbəsini düşmən pəncəsinə verməmək üçün mübarizə aparmışdır. Ancaq o dönəmin ordu düzənsizliyi səbəbindən qəhrəman oğullar düşmənin işğalına əngəl ola bilməmişdilər. Emin vətənin işğalını qəbul etməyən bir ata - nın yanında böyüdüyü üçün onun seçəcəyi peşə hərbçi peşəsindən başqa bir peşə ola bilməzdi.

Azadlıq yolunu şəhadət yolu ilə birləşdirən qəhrəmanın ömür yolunun başlanğıcı 21 iyul 1977-ci ildə İmişli rayonunda başlamışdır. Ailə - də 5 qardaş, 2 bacı olmuşdular. Emin 1983-cü

ildə İmişli şəhər Namiq Şirinov adına 5 №li tam orta məktəbdə təhsil almağa başlamışdır. Elə məktəbdə oxuyan zamanlardan vətən eşqi gözlərindən və sözlərindən oxunmuşdur. Emin XI sinifdə Cəmşid Naxçıvanski adına Hərbi liseyə qəbul olmuşdur. Sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, dörd illik təh - silini leytenant hərbi rütbəsi alaraq tamamla- mışdır. Daha sonra vətən səngərinə atılmışdır. İlk olaraq Gəncədə xidmətə başlayan Emin müxtəlif zamanlarda Murovda, Goranboyda, Balakəndə yerləşən N saylı hərbi hissələrdə xidmət etmişdir.

Emin bütün bu addımları atarkən Eminin həyat yoldaşı Məhsəti xanım da onunla bə- rabər addımlamışdır. Emin vətən sevgisi üçün, Məhsəti xanım isə Eminə olan sevgisi üçün bütün çətinliklərə sinə gəlmişdir. Ailənin se- vincinə sevinc qatan isə ailənin övlad adlı bəhrəsi Bəhmən və Emiliya olmuşdur.

Emin illərini peşəkar hərbçi olmaq üçün fə- da edən hərbçilərdən biri olmuşdur. Elə həmin peşəkarlığı ilə də 2016-cı ildə baş verən Aprel döyüşləri zamanı öz sözünü demişdir. Döyüş - lərdə xüsusi rəşadət göstərən Emin Fəxri fərmanla təltif edilmiş və elə həmin il mayor hərbi rütbəsinə layiq görülmüşdür. Emin Qa - rabağın azadlığında qərarlı olmuşdur.

2020-ci il Tovuz döyüşlərindən sonra Emin və onun kimi qəhrəmanlar qisas anının çat-

mağını və Azərbaycan Respublikasının Prezi- denti İlham Əliyevin Qarabağa doğru "İrəli" əmrini verməsini səbirsizliklə gözləyirdilər. O gün həmin il sentyabrın 27-də çatdı.

Emin müharibənin ilk günündən son gü- nünə qədər mübarizə aparan qəhrəmanlar- dandır. Azad olunan hər qarış torpaqda Eminin zəhməti və ömür payı var. 7 noyabrda Xoca- vənddən ailəsinə zəng etdiyi zaman Murov- dağdan başlayan döyüş yolunun Kəlbəcərdən, Füzulidən, Laçından, Daşaltıdan keçib Xoca- vəndə çatdığını demişdir. Bilmirdi ki, o danı - şıq Eminin sevdikləri ilə son danışığıdır.

Eminin son sözü "Əsgərlər, özünüzü qoru- yun" olub. Cismi vətənə tuşlanan minamyot qəlpəsinə tuş gələn qəhrəman o an şəhadətə ucalıb.

Noyabrın 13-də qəhrəmanlar oylağı olan İmişli torpağı daha bir şəhidini Xubyarlı kənd məzarlığında bağrına basıb.

Emin orduda xidmət etdiyi zamanlarda "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli me- dalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı, "Azərbaycan Ordusunun 90 illiyi" yu - biley medalı, "Azərbaycan Ordusunun 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı və bir çox diplom və fəx - ri fərmanlarla təltif edilmişdir. Vətən müha- ribəsi zamanı göstərdiyi qəhrəmanlığa görə

də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı, "Cəsur döyüşçü" medalı və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Şəhid Emin

Sənin baxışından hiss olunurdu,
Ruhunda var olan güc, dəyanətin.
Min il oxunacaq kitaba döndü,
Dağlar qısqandıran o əzəmətin.
Açdığın atəşlər baxışın kimi
Düşmən ürəyini nişan alırdı.
"Aprel döyüşü"nün canlı şahidi,
Adın tarixlərdə şəhid tək qaldı.

Sonuncu nəfəsdə dilə gətirdin:
"Qoruyun, əsgərlər, siz özünüzü!"
Həmin an vətənə can qurban etdin,
Nuruna qərq oldu göylərin özü.

Bu gediş özüylə alıb apardı,
İki gül balanın ata arzusun.
Sevginlə həyata tutunan qadın
Zamansız yaşadı həsrət duyğusun.

Qəlbi bala dağlı ananın dərdi
Sənin gedişinlə təkrar qanadı.

Şəhid oğul dərdi bir ana üçün
Heç vaxt sağalmayan dərddi, yaradı.

Sən getdin, elə bil, arzular döndü
Limanı olmayan dərya, dənizə.
Emin, bu Vətəni, bir də bayrağı
Bir miras, əmanət qoymusan bizə.

Manya Səxavətqızı
"Hərbi and" qəzeti, 15 iyul 2022/
№27 (939)

Şəhid Emin

Sən vətən sevdalı qəhrəman oğul,
Sənինlə millətin iftixar duyur.
Ömrünü vətənçün yaşadın, mayor,
Elə vətən üçün canından keçdin
Cənnəti əbədi bir məskən seçdin.

Doldu ürəyinə Kəlbəcər mehi,
İslatdı çöhrəni azadlıq şehi.
Düşmənin vətəndə çəkdiyi kefi,
Sənintək oğullar burnundan tökdü,
Önündə düşmənlər diz üstə çökdü.

Süzdün qartal kimi vətən dağında,
Həsrət iz salmışdı könül bağında.
Gəzdin azadlığın hey sorağında,
Laçında bərq vurub, Şuşaya uçdun,
Xocavənd torpağın şəhidtək qucdun.

Gəldi İmişliyə şəhid sorağın,
Qanatdın ananın sağalmaz dağın.
Zirvəyə ucalan vətən bayrağın,
Emin, yenə başın üstə ucaltdın,
Azadlıq, şəhadət arzuna çatdın.

Bayrağı göz üstə qoydu Bəhmənin,
Dedi "Şəhididir atam vətənin".
Yenilməz adının əzəmətinin,
Nuruna cəm olub bacın, qardaşın,
Sənlə qürur duyur qızın, yoldaşın.

Manya Səxavətqızı
"Vətən fədailəri (İmişli şəhidləri) II Hissə"
kitabından

Qışa dönüb baharım

(Şəhid mayor Emin Süleymanovun xanımı
Məhsəti Süleymanovanın adından)

Eşq bağıma qor düşüb,
Qışa dönüb baharım.
Sənsizliyə məhkumam,
Ruhum sızlayır, yarım.

Sənsizliyin qolları,
Boğur məni hər gecə.
Yaşadım, yaşayıram,
Bilmirəm ki, mən necə?

Yaşamaq deyil ki, bu,
Bildiyin işgəncədir.
Mənim dünyam cəhənnəm,
Sənin dünyan necədir?

Varmı əbədiyyətdə
Acımın mükafatı?
Sənə qovuşmaq üçün
Yaşayıram həyatı.

Oğlun, qızın adının
Qürurunu daşıyır.
Adın ölməz özüntək;
Çün şəhidlər yaşayır.

Sən hər payız, hər bahar
Qönçələnib açırsan,
Əsən küləklə birgə
Bu vətəni qucursan.

Bu vətən sənsən, Emin,
Torpaq, səma, buludlar...
Şəhidim, yurddaşların
Çətin səni unudar.

Manya Səxavətqızı

Emin

Öz ömrünü ləyaqətlə yaşadı,
Doğma yurda məhəbbətlə yaşadı,
Sevgi ilə, sədaqətlə yaşadı,
Ucaldı əbədi zirvəyə Emin.

Ordunun mayoru, zabiti idi,
Vətənin cəsur bir igidi idi,
Qələbə-arzusu, ümidi idi,
Ucaldı əbədi zirvəyə Emin.

Artilleriyada komandir idi,
Döyüşlərdə sanki pələng, şir idi,
Yaradan da ona dayaq, yar idi,
Ucaldı əbədi zirvəyə Emin.

İmişli elinin əziz balası,
Vətənin dayağı, sipər-qalası,
Qəlblərdə həmişə yaşar, qalası,
Ucaldı əbədi zirvəyə Emin.

Mənim şair könlüm ilhamla dinər,
Aprel döyüşündə göstərdi hünər,

Dedi: – Ey əsgərlər, bizimdir zəfər,
Ucaldı əbədi zirvəyə Emin.

Verəndə xoş əmri Ali Komandan,
Girdi döyüşlərə Emin, nər, aslan,
Yox oldu, məhv oldu tayqulaq, nadan,
Ucaldı əbədi zirvəyə Emin.

Hər zülmətdən sonra doğular səhər,
Xilas eylədilər neçə kənd, şəhər,
Yağının aşına qatdılar zəhər,
Ucaldı əbədi zirvəyə Emin.

Şeytanlar, iblislər gəlsin lənətə,
Bu aslan ürəkdə baxın qeyrətə,
Sonadək vuruşdu, köçdü cənnətə,
Ucaldı əbədi zirvəyə Emin.

Vətən azadlığı ona səadət,
Göstərdi nə qədər hünər, rəşadət,
İki gül balası qalıb əmanət,
Ucaldı əbədi zirvəyə Emin.

Şəhidlər tacdılar Azərbaycana,
Başını dik saxla, Tamara ana,
Mərd oğlun yetişdi şöhrətə, şana,
Ucaldı əbədi zirvəyə Emin.

Coşqun Xəliloğlu
AYB-nin üzvü
04.09.2022

Şəhid mayorun xanımı: "Gözümün qabağında partlayış oldu" – REPORTAJ

"Elə general var ki, adı tarixə düşmür, lakin o, adını tarixə yazdı. Bu yolda öldü var, döndü yoxdur".

Bu sözləri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən 44 günlük haqq savaşında qəhrəmanlıq göstərən, öz canını torpaqlarımızın azadlığı üçün qurban verən igid hərbçimiz ölümündən bir neçə ay öncə ailəsinə deyib.

Arayış: Emin Bəhmən oğlu Süleymanov 1977-ci il iyulun 21-də İmişli rayonunda anadan olub. 1983-1992-ci illərdə orta məktəbdə, 1992-1995-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə orta təhsilini başa vurub. 1995-1999-cu illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində ali təhsil alaraq artilleriyaçı ixtisasına yiyələnib. Emin Süleymanov 1999-cu ildə ali hərbi məktəbdən məzun olduqdan sonra Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə "leytenant" rütbəsində hərbi vəzifəsinə başlayıb.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsinə qatılanda Emin Süleymanov artıq mayor rütbəsində idi. O, artilleriyaçı kimi Murovdağın, Füzulinin, Xocavəndin, Şuşanın və Laçının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 7-də Şuşanın Daşaltı kəndi istiqamətində gedən döyüşlərə qatılıb. İki gün sonra isə Laçın dəhlizi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub.

Oxu.az əməkdaşı şəhidimizin ailəsinin yaşadığı ünvana baş çəkib.

İçəri daxil oluruq... Bizi şəhidimizin həyat yoldaşı və övladları qarşılayırlar.

Şəhidin həyat yoldaşı Məhsəti Süleymanova Eminlə bağlı xatirələrini danışır:

"Eminin hərbiyə marağı uşaq yaşlarından olub. Atası polis mayoru olub. Elə hərbiyə də sevgisi bundan irəli gəlib. Poqonu çox sevirmiş, hətta atasına özü üçün poqon da tikdirtdirib.

Emin 43 illik ömrünün 30 ilə yaxınını hərbidə keçirib. Peşəkar zabit idi. Hərbçi ailəsi daim təşviş içərisində olur. Onun tərxis olunmasını gözləyirdik. Bu müharibə tamam başqa cür oldu. Torpaqların alınmasından ötrü bütün ölkə səfərbər oldu. Müharibənin başlandığını bizə demirdi. Ağlımıza gəlmirdi. Müharibənîn adı belə, bizdə təşviş yaradırdı".

Məhsəti xanım Eminlə son görüşünün oktyabrın 5-də olduğunu deyir:

"Oktyabrın 4-də Gəncəyə raket atıldı. Həmin vaxt yanacaqdoldurma məntəqəsinin partladıldığını demişdilər. Daha sonra hər şey məlum oldu. Oktyabrın 5-də yenə də raket atdılar. Gözümün qabağında partlayış oldu. Uşaqlara görə daha çox narahat idim. Emin zəng edib dedi ki, uşaqları götür, get. Uşaqları götürüb, Bakıya gəldim.

Oktyabrın 4-5-i axırıncı görüşümüz oldu. Tələsik evə gəldi. Dedi ki, uşaqlar məni gözləyirlər. Yemək belə yemədi. Onun üçün birinci işi, sonra ailəsi idi. Heç vaxt işi barədə danışmırdı. O inanmırdı ki, şəhid olacaq. Qayıdacaqmış kimi getdi.

Son danışığımız 7 noyabrda olub. Noyabrın 9-da şəhid oldu. Bir gün zəng çatmayanda dəli olurdum. Həmin ərəfələrdə Bakıda idim. Bir ağırlıq, itki qorxusu var idi. Ayın 8-də çox narahat idim. Qələbəyə yetərincə sevinə bilmirdim. Əslində, ikili hiss yaşayırdım. Amma deyirdim ki, torpaqlar azad olunsun, Eminlə o torpaqları ziyarət edək. Qismət olmadı. Harada olduğunu bilmirdik. Noyabrın 9-da artıq onun şəhid olduğunu evdəkilər bilirdilər, lakin mənə demədilər. Dörd gün sonra xəbər tutdum".

Məhsəti xanım Emin haqda danışır, Bəhmən və Emiliya isə sakitcə oturub, gözlərini atalarının fotolarına dikiblər.

M.Süleymanova deyir ki, Polad Həşimov və İlqar Mirzəyevin şəhadəti Eminə çox təsir edib:

"Deyirdi ki, bu iş bitməlidir. Öldü var, döndü yoxdur. Polad Həşimovun şəhidliyi ona təsir etdi. Dedi, general var ki, adı tarixə düşmür, lakin o, adını tarixə yazdı. İlqar Mirzəyev Eminin taqım komandiri olub. Onun da şəhadətinə çox təəssüfləndi.

Şəhidlik ucadır. Lakin bəzən deyirəm ki, ay Emin, sən övladlarının yanında olmalı idin. Zabitlər həmişə güllənin istiqamətini də bilirlər. Emin 382 əsgərinin önündə gedən zabit olub. O, şəhid olacağını bilirdi, sadəcə, demirdi. Həmişə deyirdi ki, qismətimdə nədirsə, o da olacaq. Şəhid olan komandirlər əsgərlərini qoruyub şəhid olublar. O, yorğun halda müharibəyə qatıldı. Getməməyi özünə pis bilirdi. Deyirdi ki, mən əsgərlərimi ata bilmərəm".

Şəhid xanımı Eminin yoxluğunu qəbullana bilmədiyini deyib:

"Bu gün onu hiss edirəm. Onu ömürlük görməmək hissi gələndə özümə gələ bilmirəm. Noyabrın 13-də mənim dünyam dağıldı. Bakıda idim. Onun tabutunu İmişliyə, ata yurduna aparmışdılar. Şokdaydım. Çox çətin anlardı. Emin kimi həyat yoldaşını itirmək çox ağırdır. İki il ötüb, hələ də qatlana bilmirəm. Eminlə mən sağlığında da qürur duyurdum.

Yuxularıma girir. Ancaq gülür. Eminin nə şəhid, nə də qazi olacağı ağlıma gəlməzdi. Məni o qədər inandırmışdı ki... Kaş qazi olaraq gələydi, amma gələydi. Evində, uşaqlarının yanında olardı. "Kaş ki"lər çoxdur".

M.Süleymanova bəzən atasını günahkar bildiyini deyib:

"Həyatımın dayaq nöqtəsini itirdim. Bəzən atamı günahkar bilirəm. Ona deyirəm ki, yeznəni qoruya bilmədin. Emin məni hər kəsdən incik salıb.

Emin ailəcanlı, ana istəyən oğul olub. Ailədə yeddi övlad olublar. Dördüncü övladdır ki, dünyadan köçür.

Qızım Emiliyanın 14, Bəhmənin 15 yaşı var. Emiliyanın adını özü qoyub. Qızımızın ad günündən bir gün öncə onun tabutu gəldi. Qızını bir gün öncədən təbrik etmək istəyib".

Məhsəti xanım son təxribat hücumlarının onu iki il öncəyə qaytardığını da sözlərinə əlavə edir:

"Sentyabrın 12-dən 13-nə keçən gecə olanlar məni iki il öncəyə qaytardı. Hər şəhid xəbəri məni Vətən müharibəsi günlərinə qaytarır. Yanğını daha da artırır. Torpaqların qayıtmağına sevinirik. Lakin təəssüf ki, oğullar qayıtmır.

Emin üçün işi, əsgəri daha önəmli idi. İrəli getməyi düşünürdü. Ancaq canını qoruya bilmədi. O torpaqlara gedib xürrəm yaşamaq şəhid ailələrinə qismət olsun. Səngərdə olan əsgərlərə demək istərdim ki, salamat qayıtsınlar. Ayıq-sayıq olsunlar. Valideynlərinə səbir diləyirəm".

Emin Süleymanov övladlarına çox bağlı biri olub. Oğlu Bəhmən atasının tərxis olunmasını səbirsizliklə gözlədiklərini deyib:

"Atam boş vaxtlarını bizə sərf edirdi. Bizimlə bacardığı qədər vaxt keçirməyə çalışırdı. Dərslərimizlə maraqlanır, bizim savadlı olmağımızı çox istəyərdi. Vətənə layiqli övlad olmağımızı daim arzulayıb. Tərxis olunmasını gözləyirdik.

Son dəfə, həmişəki kimi, evə yorğun gəldi... Vidalaşa bilmədik. Yuxuda görmüşəm. Amma tam xatırlamıram".

Noyabrın 14-ü Emiliyanın doğum günüdür. Qızın ad günündən bir gün öncə evə atasının nəşi gəlib.

"Atam bəzən işə gedəndə deyirdi ki, birlikdə gedək. Çox sevinirdik ki, atamla gedəcəyik. Atam ilə getmək üçün çox çalışırdıq. O, evə gələndə biz çox sevinirdik", – Emiliya deyir.

Şəhidimizin xanımı bildirir ki, Emin Süleymanovun adının məktəbə verilməsini istəyərdi: "Bir tək adının yaşadılmasını arzulayıram".

Qeyd edək ki, Emin Süleymanova öncədən qüsursuz xidmətlərə görə medallar verilib. Ölümündən sonra Şuşa, Kəlbəcər və Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə medallarla təltif olunub. "İgidliyə görə" və "Cəsur döyüşçü" medallarına da layiq görülüb.

Nəzrin Vahid
https://oxu.az/society/647884
01.10.2022

Bu gün şəhid mayor Emin Süleymanovun doğum günüdür

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Şanlı Ordumuzun qələbə qazandığı Vətən müharibəsində qəhrəmancasına şəhid olan igid oğullarımızdan biri də İmişli rayon sakini mayor Süleymanov Emin Bəhmən oğludur. Emin Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, noyabr ayının 9-da Laçın döyüşləri zamanı şəhid olub. İgid döyüşçü anadan olduğu rayonun Xubyarlı kəndində dəfn olunub.

Emin Süleymanov 1977-ci ildə iyulun 21-də dünyaya gəlib. Şəhidimizin doğum günü münasibəti ilə İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev və Aparatın məsul əməkdaşları tərəfindən Eminin məzarı ziyarət edilib, əziz xatirəsi ehtiramla anılıb və ruhuna dualar oxunub. Ziyarət zamanı, həmçinin, şə-

hidimizin ailəsinə baş çəkilərək onların qay - ğıları ilə maraqlanılıb. Eminin ailəsi və döyüş yoldaşları onun keçdiyi şərəfli ömür yolundan danışıblar və şəhidlərimizin qanlarının yerdə qalmadığını bildiriblər.

Qeyd edək ki, şəhidimiz vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda","İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

http://imishli-ih.gov.az/
21 iyul 2021

Vətən müharibəsi şəhidi Emin Süleymanova həsr olunmuş videoçarx təqdim edilib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Nərimanov rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasının əməkdaşı Günel Eyvazova Vətən müharibəsi şəhidi Emin Süleymanovun həyatı və döyüş yolu haqqında videoçarx hazırlayıb.

Kitabxana əməkdaşının təqdim etdiyi videoçarxda bildirilib ki, Emin Süleymanov 1977-ci il iyulun 21-də İmişli rayonunda ana - dan olub.

Azərbaycan Ordusunun mayoru olan Emin Süleymanov 2020-ci il sentyabrın 27-də Azər - baycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Emin Süleymanov noyabrın 9-da Laçın döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Emin Süleymanov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

http://az.baku-art.com/
17/02/2022

Şəhid mayor Emin Süleymanovun xatirəsi yad edilib

Qırx dörd günlük Vətən müharibəsində Murovdağdan Laçın dəhlizinədək döyüşərək şəhadətə qovuşan Emin Süleymanovun doğum günündə xatirəsi anılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, yaxınları, doğmaları, Vətən müharibəsinin qaziləri, həmçinin, döyüş yoldaşları şəhidin məzarını ziyarət edərək onun döyüş yolundan, qəhrəmanlığından danışıblar. Həmçinin, Emin adını daşıyan sinif otağına da baxış keçirilib. Bildirilib ki, Azərbaycan tarixinin ən şanlı səhifəsində yer alan şəhidlərimiz gələcək nəsillər üçün əsl vətənpərvərlik nümunəsidir. İndi şəhidlərimizin adını daşıyacaq siniflərdə təhsil alan şagirdlərimiz məhz Emin və onun kimi igidlərimizin qəhrəmanlığını mənimsəyəcək, gələcəkdə Vətənə, dövlətə, xalqa layiq yetişəcəklər.

Qeyd edək ki, Emin Süleymanov 1977-ci il iyulun 21-də İmişli rayonunda dünyaya göz

açıb. Ömrünün yeniyetmə çağlarında erməni faşizminin şahidi olan Emin gələcəyin hərbi - çisi olmağa qərar verib. Hərbi məktəbə daxil olan Emin daha sonra Ali Hərbi Məktəbdə təhsilini davam etdirib. O, aldığı hərb təhsilini və döyüş taktikalarını peşəkarcasına mənimsəyərək artilleriyaçı olur. Ordu sıralarında xidmət etməyə başlayan gündən Emin yalnız ön cəbhədə xidmətini yerinə yetirib. Mayor rütbəsinə qədər ucalan Emin divizion komandiri olub. Hələ "Aprel döyüşləri"ndə Emin və tabeliyində olan topçular erməni təxribatının qarşısının alınmasında şücaətləri ilə seçilib. Emin Süleymanov xidməti dövründə fərqlən - diyinə görə bir neçə medal və fəxri fərmanlarla təltif edilib. Vətən müharibəsi başlayan gündən Emin komandanlıq etdiyi divizionla düşmən mövqelərini dəqiq atəşlərlə məhv etməyə başlayıb. İlk döyüş yolu Murovdağ istiqamətindən başlayan Emin Süleymanov və topçuları daha sonra Füzuli, Cəbrayıl, Xocavənd rayonları uğrunda gedən döyüşlərdə fəal iştirak ediblər. Tuğ kəndinin alınmasında Emin və artilleriyaçıları xüsusi fəallıq göstə - riblər. 44 gün döyüşən Emin və topçuları də - qiq koordinatlarla hədəfə aldıqları düşmənin strateji mövqelərini, bir çox texnikasını və xeyli sayda canlı qüvvəsini məhv ediblər. No - yabrın 9-da Laçın dəhlizi istiqamətində gedən gərgin döyüşlər zamanı Emin Süleymanov

qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb.

Qeyd edək ki, şəhid mayor Emin Süleymanov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

https://azertag.az/
22.07.2021

Şəhid mayorun döyüş yolu haqqında videoçarx hazırlanıb

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Nərimanov rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanasının əməkdaşı Günel Eyvazova Vətən müharibəsinin şəhid mayoru Emin Süleymanovun həyatı və döyüş yolu haqqında videoçarx hazırlayıb.

Videoçarxda bildirilir ki, Emin Bəhmən oğlu Süleymanov 1977-ci il iyulun 21-də İmişli rayonunda anadan olub. Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirib. Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissələrində uğurla xidmət edib, müxtəlif medallara layiq görülüb.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində şəhər və kəndlərimizin işğaldan azad olunmasında rəhbərlik etdiyi artilleriya heyəti ilə şücaət göstərib. Emin Süleymanov noyabrın 9-da Laçın döyüşləri zamanı şəhid olub.

Dövlət başçısının müvafiq sərəncamına əsasən şəhid mayor ölümündən sonra "Vətən uğ0runda", "İgidliyə görə" və "Şuşanın azad olun0masına görə" medalları ilə təltif edilib.

https://www.medeniyyet.az/
17-02-2022

Sevdası Vətən olanlardan idi Emin Süleymanov. "Ömür" dediyimiz başından sonuna yanğıdır. Elə buna görədir ən kövrək yaşanmışlara "şam ömrü" deməyimiz. Sadəcə, bu ömrə məna qatan onun nədən ötrü yanmasıdır. Şəhid mayorun yaşadığı 43 ili Tanrı qatında qutsallaşdıran onun ömür şamının məhz sevdası üçün yanmasıdı. Vətən sevdası... Candan uca, qandan müqəddəs, "uf" demədən uğrunda həyatlar fəda edilən bir sevdadır bu.

Vətən müharibəmizdə canını qurban edən bütün şəhidlərimizin, o cümlədən, Emin Süleymanovun adı bu sevdanın əlvanlığı ilə həkk olundu Azərbaycan tarixinə. Bəs, bu sevda nə rəngdəydi? Şəhidlərimizin Vətənə, bizə əmanət qoyub getdiyi ailələrinin məğrur həsrəti ilə eyni rənglərə malikdir Vətən sevdası: göy, qırmızı, yaşıl...

Bu üç rəngin başımızın üstündə daim dalğalanması naminə canını Ulu Torpağa qatan şəhid mayor Emin Süleymanov təkcə öz yadigarlarının – Bəhmənin və Emilyanın hər çiçək arzusunda mövcud deyil, həmçinin, Azərbay-

canda doğulan hər körpənin genetik yaddaşında əbədilik qazanmışdır.

Bir insan öz məzarıyla, uyuduğu torpaqla bir yurda müqəddəslik qazandıra bilərmiş. Varlığıyla vətən torpağını müqəddəsləşdirən Emin Süleymanov şəhadətiylə də bu missiyasına sadiq qaldı. O, İmişli rayon Xubyarlı kənd qəbiristanlığında uyuyan tək şəhiddir. Bir rayon, bir kənd məhz bu məzarla – şəhid mayor Emin Süleymanovun bağrına basdığı pak cismiylə qutsallığa ulaşıb. Nə gözəl məqamdır, deyilmi?!

30 illik Qarabağ həsrətini sona çatdıranlardan biri – Emin Süleymanov haqqında "son söz" heç vaxt deyilməyəcək. "Son" məfhumu əbədiyyətə yaddır!

“Bir də gördün
fotodur adam...”

Ələkbər Salahzadə

AZƏRBAYCAN VƏTƏN MÜHARİBƏSİNİN İMİŞLİ RAYON ŞƏHİDLƏRİ

27 sentyabr-10 noyabr 2020-ci il tarixləri arasında davam edən və xalqımızın böyük zəfəri ilə nəticələnən 44 günlük Vətən müharibəsində İmişli rayonu 48 şəhid vermişdir. Məqamınız uca olsun!
Şəhidlər fəxrimizdir!!!


lvid a,
b
a
g

MİNBAT ƏSGƏRLƏRİ KAMANDİRLƏ.

Emin Süleymanov və digər şəhidlərimizin övladları Şuşada...

MUROVDAN XATİRƏLƏR



"Aprel döyüşləri" şəhidi, polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı, "Zəfər Şəhid ailələrinə dəstək" İctimai Birliyinin sədri Sevinc Orucova şəhid mayor Emin Süleymanovun ailəsini ziyarət edərkən...

APREL DÖYÜŞÜNÜN
QƏHRƏMANI OLDUN

QEYDLƏR ÜÇÜN

Təqdimat təziyə

13.03.2023